# 144 ukraynalı hərbçi azad edilib

Rusiya ilə növbəti əsir mübadiləsi həyata keçirilib



**Rusiya ilə növbəti əsir mübadiləsi həyata keçirilib, 144 ukraynalı hərbçi azad edilib**

Ukrayna və Rusiya növbəti dəfə əsir mübadiləsi həyata keçirib.

"Report" xəbər verir ki, bu barədə Ukrayna Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsi teleqramda bildirib.

Bu dəfə 144 ukraynalı hərbçi azad edilib. Onların arasında 95 nəfər "Azovstal"ın müdafiəçisi var.

# Gürcüstan - Rusiya sərhədi açıldı



**Gürcüstan-Rusiya sərhədində yerləşən "Kazbek" gömrük məntəqəsi fəaliyyətini bərpa edib.**

Axar.az xəbər verir ki, bu barədə Gürcüstan Maliyyə Nazirliyinin Gəlirlər Xidmətindən bildirilib.

Vurğulanıb ki, beynəlxalq avtomobil yükdaşımalarının 24 saat ərzində maneəsiz hərəkətinin təmin olunması üçün fəal iş aparılır.

*Qeyd edək ki, iyunun 27-də Gürcüstan-Rusiya sərhədi fəaliyyətini müvəqqəti dayandırmışdı.*


№ 113 (5635), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 30 iyun 2022-ci il (cümə axşamı)





# Bakının bəzi parklarında pulsuz Wi-Fi olmayacaq

**Dünəndən etibarən Bakının 14 parkında göstərilən "İctimai Wi-Fi" xidməti dayandırılır.**

"Baktelecom"dan "Şərq"ə verilən məlumata görə, operatorun göstərdiyi xidmətlərin optimallaşdırılması məqsədilə "İctimai Wi-Fi" xidmətinin mövcud olduğu ərazilərdə müştərilərin xidmətdən istifadəsi üzrə monitorinq işləri aparılıb.

Monitorinqin nəticələrinə əsasən, daha çox tələbatın olduğu ərazilər istisna olmaqla, digər ərazilərdə dünəndən etibarən xidmətin dayandırılmasına qərar verilib.

"İctimai Wi-Fi" xidməti paytaxtın "İçərişəhər" Dövlət Tarix Memarlıq Qoruğunun, Qış parkının, Sabir bağının, Xaqani bağının, Axundov bağının, Zabitlər parkının, Hüseyn Cavid parkının, Dədə Qorqud parkının, İzmir parkının, Sahil bağının, Səməd Vurğun bağının, Muğan bağının, "Fashion Avenue" küçəsinin ərazisində və Beynəlxalq Avtovağzalın perronunda dayandırılıb.

Eyni zamanda, Dənizkənarı Milli Parkda (Köhnə Bulvar, Ağ Şəhər Bulvarı əraziləri), Dövlət Bayrağı Meydanında (Su İdmanı Sarayına qədər) və Heydər Əliyev Mərkəzinin parkında göstərilən "İctimai Wi-Fi" xidmətinin daha da təkmilləşdirilməsi nəzərdə tutulur.



# Prezident İlham Əliyev: "Zəngəzur dəhlizi artıq reallığa çevrilir"

**Qarabağda münaqişə başa çatdıqdan sonra aparılan genişmiqyaslı işləri nəzərə alsaq, Zəngəzur dəhlizi artıq reallığa çevrilir. Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkmənistanın paytaxtı Aşqabadda Xəzəryanı ölkələrin dövlət başçılarının VI sammitində deyib.**

"Vətən Müharibəsindəki qələbədən və Ermənistanla münaqişənin həllindən sonra Azərbaycan Qarabağın və şərqi Zəngəzurun yenidən qurulması və bərpası, o cümlədən beynəlxalq nəqliyyat əlaqələrinin inkişafı istiqamətində genişmiqyaslı işlər görməyə başladı. Zəngəzur dəhlizi artıq reallığa çevrilir", - Əliyev sammitdəki çıxışında deyib.

*Xatırladaq ki, Türkmənistanın paytaxtı Aşqabadda Xəzəryanı ölkələrin dövlət başçılarının VI sammiti keçirilib.*

*Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyev VI Xəzər sammiti çərçivəsində İran və Türkmənistan prezidentləri, həmçinin Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə görüşüb.*

# Xüsusi ekspert qrupları yaradılacaq

## Xəzərin dayazlaşmasının qarşısını alınacaq



**"Xəzəryanı dövlətlərin əməkdaşlığının müqavilə-hüquqi bazası möhkəmlənir".**

Bunu Azərbaycan Prezidenti İlham Əliyev iyunun 29-da Aşqabadda keçirilən Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısında çıxışı zamanı deyib.

Dövlət başçısı bildirib:

"Təhlükəsizlik, hidrometeorologiya, nəqliyyat, suyun bioloji ehtiyatlarının qorunub saxlanması və səmərəli istifadəsi, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahələrində, habelə digər maraq doğuran başqa sahələrdə sazişlər imzalanıb və qüvvəyə minib. Əməkdaşlıq barədə sazişlərin yeni layihələri üzərində iş başlanıb. Bu layihələr müzakirə prosesindədir və hazır olduqca imzalanmaq üçün təqdim ediləcək.

(səh.2)

# Ermənistan bölgədə gərginlik yaradır

İrəvan rəsmisinin açıqlaması riyakarlıqdan başqa bir şey deyil



Ermənistan silahlı qüvvələrinin Baş Qərargah rəisinin müavini Saak Saakyan hərbi xidmətə çağırılan vətəndaşların valideynləri ilə görüşdə Azərbaycanın Qarabağ bölgəsində erməni müddətli hərbi xidmətçilərinin müddətdən artıq həqiqi hərbi xidmət qulluqçuları ilə əvəzlənəcəyinə dair məlumat verib.

(səh.2)



# NATO qazandı, Rusiya uduzdu

1340 kilometrlik yeni cəbhə açıldı



**Madriddə NATO liderlərinin sammiti baş tutub. Sammitdən əvvəl Türkiyə, Finlandiya, İsveç və NATO liderləri arasında kritik görüş keçirilib.**

Görüşdən dərhal sonra təşkilatın genişlənməsinə imkan verəcək bir memorandum da imzalanıb. Razılaşma nəticəsində Finlandiyanın NATO-ya daxil olması ilə Rusiyaya qarşı yeni 1340 kilometrlik cəbhə yaranacaq. Bu vəziyyət NATO üçün böyük qazanc, Rusiya üçün isə itki kimi qələmə verilir.

(səh.4)




# Solovyov "saman altından su yeridir"

Telejurnalistin Qarabağ təxribatı Rusiyanın dövlət siyasətinə ziddir

Azərbaycanla Rusiya arasında son 4 ayda iki sənəd imzalanıb. Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə" və "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında beynəlxalq informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində əməkdaşlıq haqqında Saziş".

(səh.3)

# Azərbaycanda yoluxma sayı artdı

Daha 36 nəfər COVID-19-a yoluxub

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 36 yeni yoluxma faktı qeydə alınıb, 27 nəfər müalicə olunaraq sağalıb.**




Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxanlar arasında vəfat edən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 793 224 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 783 343 nəfər müalicə olunaraq sağalıb, 9 717 nəfər vəfat edib, aktiv xəstə sayı 164 nəfərdir.

Ölkədə son sutka ərzində 3 174, hazırkı dövrədək isə 6 961 028 test aparılıb.

# Yaponiyada son 150 ilin rekord istiliyi qeydə alınıb

Günvurmadan əziyyət çəkən onlarla insan xəstəxanalara yerləşdirilib



**Yaponiya son 150 ilin ən isti iyun ayını yaşayır.**

APA xəbər verir ki, günvurmadan əziyyət çəkən onlarla insan xəstəxanalara yerləşdirilib.

Ölkə tarixində ilk dəfə iyunda havanın temperaturu 40 dərəcəni keçib. Rekord göstərici İsesaki şəhərində qeydə alınıb. Paytaxt Tokioda isə ardıcıl 5 gündür hərarət 35 dərəcədən aşağı enmir. Bu hal 1875-ci ildən indiyədək ilk dəfə baş verir.



# Azərbaycan ərzaq qıtlığı ilə hələlik üz-üzə deyil

"Əhali də nöqsanlara qarşı mübarizə üsulu seçməlidir"

(səh.2)



# "Biz kimə istəsək, ona da səs verəcəyik"

Elçin Hüseynbəyli: "Ən dinamik camea ədəbiyyat, ən dinamik qurum isə Azərbaycan Yazıçılar Birliyidir"

(səh.4)



# Xüsusi ekspert qrupları yaradılacaq

## Xəzərin dayazlaşmasının qarşısını alınacaq

**“Xəzəryanı dövlətlərin əməkdaşlığının müqavilə-hüquqi bazası möhkəmlənir”.**

**Bunu Azərbaycan Prezidenti İlham Əliyev dünən Aşqabadda keçirilən Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısında çıxışı zamanı deyib.**

Dövlət başçısı bildirib:

”Təhlükəsizlik, hidrometeorologiya, nəqliyyat, suyun bioloji ehtiyatlarının qorunub saxlanması və səmərəli istifadəsi, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahələrində, habelə qarşılıqlı maraq doğuran başqa sahələrdə sazişlər imzalanıb və qüvvəyə minib. Əməkdaşlıq barədə sazişlərin yeni layihələri üzərində iş başlanıb. Bu layihələr müzakirə prosesindədir və hazır olduqca imzalanmaq üçün təqdim ediləcək. Xəzər dənizinin dibinin sərhədləri barədə ikitərəfli və çoxtərəfli formatlarda hüquqi cəhətdən məcburi sazişlər də bağlanıb. Xəzəryanı ölkələr arasında dostluq və mehriban qonşuluq münasibətləri, o cümlədən BMT, ATƏT, İslam Əməkdaşlığı Təşkilatı, Türk Dövlətləri Təşkilatı, MDB və İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində ikitərəfli və çoxtərəfli əməkdaşlıq Xəzər dənizində sabitliyin və təhlükəsizliyin mühüm amilidir”.

”Qeyd etməyə şadam ki, bizim qarşılıqlı fəaliyyətimizin əsasını bütün tərəflərin mənafelərinin nəzərə alınması, Xəzəryanı dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə, müstəqilliyinə hörmət və bir-birinin daxili işlərinə qarışmamaq təşkil edir. Xəzər dənizi bizim regionun xalqlarının rifahının yüksəldilməsinə



yönəlmiş bir çox beynəlxalq və regional layihələrin mühüm tərkib hissəsidir. Qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın inkişafı, investisiya mühitinin yaxşılaşdırılması, etibarlı və təhlükəsiz kommunikasiyaların qurulması, yüksək rentabelli və ekoloji təmiz texnologiyaların cəlb edilməsi üçün əlverişli şəraitin yaradılmasına çalışmaq sahilyanı dövlətlərin əsas prioritetləri olaraq qalır. Nəqliyyat infrastrukturunun inkişafı, nəqliyyat xidmətlərinin və multimodal daşımaların keyfiyyətinin yaxşılaşdırılması əməkdaşlığın mühüm istiqamətidir. Nəqliyyat sahəsində Xəzəryanı dövlətlər arasında bağlanmış ikitərəfli və çoxtərəfli müqavilələr Xəzər dənizi regionunun inkişaf etmiş infrastruktura malik iri beynəlxalq nəqliyyat qovğasına çevrilməsi üçün yaxşı təməl yaradır”, - Prezident İlham Əliyev vurğulayıb.

Azərbaycan Prezidenti Dövlət Başçılarının VI Zirvə Toplantısında çıxışı zamanı deyib ki, Xəzərin bundan sonrakı dayazlaşmasının qarşısını almağa yönəlmiş tədbirlərin müəyyənləşdirilməsi üçün xüsusi ekspert qrupları yaradılacaq.

**Dövlət başçısı qeyd edib:**

”Biz ətraf mühitin bugünkü vəziyyəti ilə əlaqədar sahilyanı dövlətlərin narahatlığına şərikik. Azərbaycan Xəzər dənizinin ekoloji problemlərinin həlli üçün əməkdaşlığın genişləndirilməsində maraqlıdır. Xəzərin bioloji su ehtiyatlarının qorunub saxlanması və səmərəli istifadəsi üzrə komissiya çərçivəsində Xəzəryanı dövlətlərin uğurlu qarşılıqlı fəaliyyəti davam edir. Bu ilin sonunda Bakıda ”Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında” Çərçivə Konvensiyasının tərəflərinin VI konfransının keçirilməsi nəzərdə tutulub. Bu gün məhdud tərkibdə görüşdə biz xüsusi narahatlıq doğuran məsələlər, konkret olaraq Xəzər dənizinin dayazlaşması barədə həmkarlarımızla fikir mübadiləsi apardıq. Biz bunu uzun illər boyu müşahidə edirik və təəssüf ki, dayazlaşma dinamikası narahatlıq doğurur. Buna görə biz fikir mübadiləsi apardıq və yəqin ki, nümayəndə heyətlərimiz belə ekoloji fəlakətin səbəblərinin aşkar edilməsi və Xəzərin bundan sonrakı dayazlaşmasının qarşısını almağa yönəlmiş tədbirlərin müəyyənləşdirilməsi üçün xüsusi ekspert qruplarının yaradılması işini davam etdirəcəklər”.

”Əminəm ki, bu Sammit Xəzəryanı dövlətlərin qarşısında duran mühüm ümumi məsələlərin həllinə yönəlmiş səylərin birləşdirilməsinə şərait yaradacaq”, - İlham Əliyev əlavə edib.

# Aşqabad sammiti Xəzərdə geniş və çoxtərəfli əməkdaşlığın əsasını qoydu

## Azərbaycan Prezidenti İlham Əliyev Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov ilə görüşüb



**İyunun 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Aşqabadda Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov ilə görüşü olub.**

Dövlətimizin başçısını Aşqabadda salamlamaqdan məmnunluğunu bildirən Prezident Sərdar Berdiməhəmmədov Zirvə Toplantısına dəvəti qəbul edib iştirak etdiyinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. İlk sammitin 2002-ci ildə Aşqabadda keçirildiyini xatırladan Türkmənistan Prezidenti həmin tədbirdə uzunmüddətli perspektiv üçün əməkdaşlığın əsasının qoyulduğunu vurğuladı. Sərdar Berdiməhəmmədov 2018-ci ildə Xəzərin hüquqi statusu haqqında Konvensiyanın imzalanmasına toxundu, Xəzər dənizində nəqliyyat, gəmiçilik, sülhün, ekoloji təhlükəsizliyin qorunması, balıqçılıq, fövqəladə hallar barədə xəbərdarlıq və onların qarşısının alınması sahələrində əməkdaşlıq barədə bir çox müqavilə üzrə işin aparıldığını dedi. Xəzər dənizinin ümumi sərvət olduğunu deyən Türkmənistanın dövlət başçısı regionda səmərəli qarşılıqlı fəaliyyətin inkişafına verdiyi şəxsi töhfəsinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

***

Dəvətə görə təşəkkürünü bildirən Prezident İlham Əliyev, ilk növbədə Sərdar Berdiməhəmmədovu Türkmənistan Prezidenti vəzifəsinə seçilməsi münasibətilə şəxsən təbrik etdi, fəaliyyətində uğurlar arzuladı. Azərbaycan Prezidenti bununla bağlı Sərdar Berdiməhəmmədova məktub ünvanladığını və telefonla təbrik etdiyini məmnunluqla xatırladı. Dövlətimizin başçısı son vaxtlar Türkmənistanda əldə olunan davamlı inkişafın Sərdar Berdiməhəmmədovun rəhbərliyi ilə də davam etdiriləcəyinə əminliyini bildirdi.

Zirvə Toplantısının əhəmiyyətinə toxunan Prezident İlham Əliyev 20 il əvvəl Xəzəryanı dövlətlərin sammitinin keçirilməsinin təşəbbüskarının Türkmənistanın olduğunu qeyd etdi və həmin sammitin Xəzərdə geniş və çoxtərəfli əməkdaşlığın əsasını qoyduğunu, Konvensiyanın imzalanmasının önəmini vurğuladı.

Türkmənistanın Xəzər dənizində və Xəzəryanı dövlətlər arasında əməkdaşlığa töhfəsini yüksək qiymətləndirən Azərbaycan Prezidenti bugünkü Zirvə Toplantısının təhlükəsizlik, ekologiya, su ehtiyatları istiqamətləri üzrə əməkdaşlığın möhkəmlənməsi işində daha bir addım olacağına əminliyini bildirdi. Xəzərin əsrlər boyu qonşu kimi yaşamış xalqlarımızı birləşdirən dəniz olduğunu deyən Prezident İlham Əliyev regionumuzda gələcək təhlükəsiz inkişafın təmin ediləcəyinə əminliyini bildirdi, bu işdə Xəzəryanı dövlətlərin böyük rolunu vurğuladı.

İkitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini deyən dövlətimizin başçısı bildirdi ki, biz bu əlaqələri yüksək qiymətləndiririk. Prezident İlham Əliyev gələcəkdə dövlətlərarası əlaqələrimizin səviyyəsini daha yüksəyə qaldırmaq üçün Prezident Sərdar Berdiməhəmmədov ilə ikitərəfli formatda da fəal işin aparılacağına əminliyini ifadə etdi.

# “Xalqlarımızın ortaq tarixi münasibətlərimiz üçün çox gözəl təməldir"

## Aşqabadda Azərbaycan Prezidenti İlham Əliyevin İran Prezidenti Seyid İbrahim Rəisi ilə görüşü olub



**İyunun 29-da Aşqabadda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə görüşü olub.**

**İran Prezidentini salamlayan Azərbaycan Prezidenti İlham Əliyev dedi:**

- Sizi görməyimə çox şadam. Keçən dəfə də burada - Türkmənistanda görüşmüşdük, bu dəfə də. Keçən görüşdən sonra münasibətlərimizə çox gözəl təkan verildi və əlaqələrimiz daha da sürətlə inkişaf etməyə başlamışdır. Hökumət üzvlərinin qarşılıqlı səfərləri təşkil edildi. Bir sıra məsələlərlə bağlı çox yaxşı irəliləyiş var, xüsusilə nəqliyyat, energetika və digər sahələrdə. Ona görə əminəm ki, bugünkü görüşdən sonra da əlaqələrimizin inkişafına növbəti təkan veriləcək və qardaş xalqlarımızın birgə gələcəyi təmin ediləcək. Xalqlarımızın ortaq tarixi münasibətlərimiz üçün çox gözəl təməldir.

***

**İran Prezidenti Seyid İbrahim Rəisi dedi:**

- Mehriban və bağışlayan Allahın adı ilə. Mən də Sizinlə görüşməkdən çox məmnunam. Düşünürəm, Xəzər dənizi ilə bağlı önəmli məsələlərdən biri budur ki, Xəzəryanı ölkələrin dövlət başçıları mütəmadi olaraq görüşürlər. Əlbəttə, Zati-alinizin Tehrana səfər etmək, mənim də Bakıya səfər etmək kimi planlarımız var. Lakin bizim belə platformalardan istifadə edib görüş keçirməyimiz də münasibətlərimizin inkişafına kömək edir. İki ölkə arasında münasibətlərin potensialı hazırda mövcud olandan daha çoxdur. Hesab edirəm ki, biz münasibətlərimizdə olan bir çox potensialdan tam istifadə edə bilməmişik. Düşünürəm ki, iki ölkə arasındakı siyasi, iqtisadi münasibətlər, ticarət, mədəniyyət əlaqələri mövcud olan vəziyyətdən daha da inkişaf etdirilə bilər.

# Ermənistan bölgədə gərginlik yaradır

## İrəvan rəsmisinin açıqlaması riyakarlıqdan başqa bir şey deyil



**Ermənistan silahlı qüvvələrinin Baş Qərargah rəisinin müavini Saak Saakyan hərbi xidmətə çağırılan vətəndaşların valideynləri ilə görüşdə Azərbaycanın Qarabağ bölgəsində erməni müddətli hərbi xidmətçilərinin müddətdən artıq həqiqi hərbi xidmət qulluqçuları ilə əvəzlənəcəyinə dair məlumat verib.**

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Ermənistan rəsmisinin bu açıqlamasını şərh edib:

”Ermənistan KİV-də ölkənin silahlı qüvvələrinin Baş Qərargah rəisinin müavininə istinadən yayılan bu məlumat, birmənalı şəkildə Ermənistan rəsmiləri tərəfindən Azərbaycan ərazilərinə qanunsuz hərbi birləşmələrin göndərilməsi ilə bağlı edilən növbəti etirafdır.

Bu, Ermənistanın 2020-ci il 9/10 noyabr tarixli üçtərəfli Bəyanatının kobud şəkildə pozulmasıdır. Xatırladırıq ki, sözügedən Bəyanatın 4-cü maddəsinə istinadən Ermənistan silahlı qüvvələri Azərbaycan ərazilərindən çıxarılır və paralel olaraq bu ərazilərdə Rusiya sülhməramlı kontingenti yerləşdirilir. Tərəfimizdən, bundan öncə dəfələrlə Ermənistan tərəfinin üçtərəfli Bəyanatın müddəalarını pozduğu, o cümlədən qanunsuz silahlı birləşmələrini Azərbaycan ərazilərindən tam çıxarmadığını bəyan etmişik.

Hazırda Azərbaycan tərəfindən münaqişə sonrası mərhələdə münasibətlərin normallaşması və sülh quruculuğu istiqamətində addımlar atıldığı bir vaxtda, Ermənistan tərəfinin belə bir yanaşması, sonuncunun bölgədə sülh yox, gərginlik yaratmaq marağını açıq şəkildə nümayiş etdirir.

Ermənistan rəsmilərinin bu açıqlaması Ermənistan tərəfinin sülhdən danışmasının riyakarlıqdan başqa bir şey olmadığını göstərir.

Bu, həmçinin Ermənistan tərəfinin təcavüzkar siyasətinin bir daha açıq şəkildə təcəssümüdür”.

# Bayden Türkiyə Prezidentinə təşəkkür edib

## Ərdoğan: “NATO-nun güclənməsi Rusiya və Ukrayna arasında münaqişənin həllinə töhfə verəcək”



**”NATO-nun güclənməsinə yönəlmiş addımlar Rusiya və Ukrayna arasında münaqişənin həlli prosesinə xüsusi töhfə verəcək”.**

”Report” ”Anadolu” agentliyinə istinadən xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Madriddə NATO sammiti çərçivəsində amerikalı həmkarı Cozef Baydenlə görüşündə deyib.

Ərdoğan qeyd edib ki, Türkiyə taxıl dəhlizi problemini balanslaşdırılmış siyasətlə həll etməyə çalışır. O, Ankaranın bu istiqamətdə səylərinin müsbət nəticələr verəcəyinə ümid etdiyini bildirib.

Cozef Bayden, öz növbəsində, Türkiyə Prezidentinə Ukrayna taxılının ixracını təmin etmək səylərinə, habelə İsveç və Finlandiyanın NATO-ya üzvlük müraciətlərini dəstəklədiyinə görə təşəkkür edib.

*Qeyd edək ki, Türkiyə və ABŞ prezidentləri arasında görüş artıq başa çatıb. Görüş 1 saat 10 dəqiqə davam edib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan görüşlə bağlı iyunun 30-da mətbuat konfransı keçirəcək.*

# Azərbaycan ərzaq qıtlığı ilə hələlik üz-üzə deyil

## “Əhali də nöqsanlara qarşı mübarizə üsulu seçməlidir”




**AQTA-nın Heyvan sağlamlığı şöbəsinin müdiri, respublikanın baş dövlət baytarlıq müfəttişi Qalib Əbdüləliyev deyib ki, qida təhlükəsizliyi riski yaradan heyvan kəsimi mədəniyyət formalaşdırılmalıdır:**

”Prosesə heyvan kəsimi ilə məşğul olan sahibkarlıq subyektləri də dəstək olmalıdır. Əhali də nöqsanlara qarşı mübarizə üsulu seçməlidirlər. Nəzərə almaq lazımdır ki, dünyada ərzaq qıtlığı təhlükəsi var. Buna iqlim dəyişiklikləri də öz təsirini göstərir. Bunun təzahürləri 150 il ərzində özünü büruzə verəcək. Misal olaraq, 10 il bundan əvvəl dünyada 1 milyard 300 milyon insan aclıqdan əziyyət çəkirdisə, son illərdə bu rəqəm xeyli azalıb. Belə ki, hazırda 850-900 milyon ətrafında insan aclıqdan əziyyət çəkir. Lakin Azərbaycan ərzaq qıtlığı ilə hələlik üz-üzə deyil”.

Şöbə müdiri həmçinin bildirib ki, yoluxucu xəstəliklərin 60 faizi heyvan mənşəlidir. Bioloji silah kimi istifadə olunan törədicilərin 82 faizini heyvan mənşəli olanlar təşkil edir. Ət və süd məhsulları xəstlikyayma baxımından əlverişli vasitədir”.

# Azərbaycan-Pakistan hərbi əməkdaşlığı müzakirə olunub



**İyunun 29-da müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ölkəmizdə rəsmi səfərdə olan Pakistan İslam Respublikasının Hərbi Hava Qüvvələri (HHQ) komandanı aviasiya marşalı Zahir Əhməd Babar Sidhunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Müdafiə Nazirliyindən “Şərq”ə verilən məlumata görə, görüşdə general-polkovnik K.Vəliyev qonaqları salamlayaraq ölkələrimiz arasında ənənəvi mehriban dostluq və qardaşlıq münasibətlərinin səviyyəsindən məmnunluğunu ifadə edib. Baş Qərargah rəisi Azərbaycan ilə Pakistan arasında təhlükəsizlik, müdafiə, hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın daha da genişləndirilməsinin, eləcə də ekspert qrupları səviyyəsində qarşılıqlı səfərlərin intensivləşdirilməsinin vacibliyini bildirib.

Azərbaycana səfərdən məmnunluğunu ifadə edən Pakistan HHQ komandanı isə öz növbəsində ölkələrimiz arasında münasibətlərin möhkəmlənməsində bu cür görüşlərin və qarşılıqlı əlaqələrin genişləndirilməsinin zəruriliyini vurğulayıb.

Görüşdə, həmçinin birgə təlimlərin keçirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.



# Solovyov "saman altından su yeridir"

## Telejurnalistin Qarabağ təxribatı Rusiyanın dövlət siyasətinə ziddir

**Azərbaycanla Rusiya arasında son 4 ayda iki sənəd imzalanıb. Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə" və "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında beynəlxalq informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində əməkdaşlıq haqqında Saziş".**

Rusiya tərəfdən birinci sənədi Prezident Vladimir Putin, ikincisini isə Xarici işlər naziri Sergey Lavrov imzalayıb. Bu sənədlər tərəflərin üzərinə bir sıra məsuliyyətlər qoyur. Ancaq sazişlərin mürəkkəbi qurumamış rusiyalı telejurnalist Vladimir Solovyov yenə anti-Azərbaycan çıxışı ilə seçilib. O, bu dəfə "Polnıy kontakt" ("Tam təmas") verilişinə Azərbaycanın satqın vətəndaşı, separatçı David Babayan adlı araqarışdıran "siyasətşünas"ı dəvət edib. Babayanın Azərbaycana qarşı çıxışları hər kəsə məlumdur. O, regionda sülhə və əməkdaşlığa əks mövqedə dayanan iğtişaşçılardan, bölgədə Ermənistanla Azərbaycan arasında normallaşma prosesinə qarşı olanlardandır. Bu, həm də onun regionda pozuculuq fəaliyyəti üçün tapşırıq yerinə yetirdiyini də ehtimal etməyə əsas verir.

Problem Solovyovdadır. Rusiyanın təbliğat ruporlarından sayılan bu jurnalist əxlaq, peşə əxlaq, beynəlxalq hüquq, dövlətlərarası münasibətlər kimi bütün normaları pozub. O, öz dövlətinə xəyanət edib. Solovyov bununla da Vladimir Putin və Sergey Lavrovun imzaladıqları sənədləri heçə sayıb. Halbuki müttəfiqliyə dair Bəyannamədə onun fəaliyyətini tənzimləyəcək bənd var. Solovyov ilk növbədə həmin sənədin birinci maddəsini "Rusiya Federasiyası və Azərbaycan Respublikası öz münasibətlərini müttəfiqlik qarşılıqlı fəaliyyəti, iki ölkənin müstəqilliyinə, dövlət suverenliyinə, ərazi bütövlüyünə və dövlət sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmət, eləcə də bir-birinin daxili işlərinə qarışmamaq, hüquq bərabərliyi və qarşılıqlı fayda, mübahisələrin dinc yolla həlli və güc tətbiq etməmək və ya güclə hədələməmək prinsiplərinə sadiqlik əsasında qururlar" və 11-ci maddəsini " Rusiya Federasiyası və Azərbaycan Respublikası öz ərazilərində təşkilatların və şəxslərin digər tərəfin dövlət suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə qarşı yönəlmiş fəaliyyətinin qarşısını qətiyyətli surətdə alırlar" pozub.



İyunun 24-də Sergey Lavrovun imzaladığı "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında beynəlxalq informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində əməkdaşlıq haqqında Saziş"inin müxtəlif müddəaları da pozulub, bu bəndlərin pozulmasına şərait yaradıb.

> "Sadəcə rəsmilər deyil, Rusiya vətəndaşı olan azərbaycanlılar da bu sayaq təxribatların dayandırılmasını tələb etməlidirlər"

Bu, Rusiya KİV təmsilçiləri, o cümlədən Solovyov tərəfindən edilən ilk qərəzli yanaşma, səhv deyil. Şəxsən Solovyov əvvəllər də anti-Azərbaycan çıxışları ilə seçilib.

**Solovyovun satılmış teleaparıcı olduğunu deyən tanınmış jurnalist, siyasi şərhçi Fuad Abbasov "Şərq"ə bildirib ki, rusiyalı telejurnalist göstərişlər yerinə yetirir:** "O həmin verilişdə Azərbaycanın mövqeyini öyrənə bilmədiyi üçün guya ölkəmizdən üzr istəyir. Amma qondarma rejimin "XİN başçısı Babayanı" bir tərəf kimi təqdim etməyə çalışır. Rəsmi Bakı qondarma rejimi tərəf hesab etmir. Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Solovyovun təxribatı növbəti dəfə "saman altından su yeritməkdir". Guya Azərbaycandan kimsə zəng etmək istədi, bildirdi ki, Azərbaycan tərəfindən kimsə danışmaq istəyirsə, buyursun. Amma qondarma rejim tərəfindən iştirak edən Babayanla heç bir Azərbaycan vətəndaşı dialoqa, müzakirələrə qatılmazdı. Çünki o, tərəf ola bilməz. Biz öz xəyanətkar vətəndaşımız olan Babayanla Solovyovsuz da müzakirə apara bilərik. Dialoqa gedə bilərik. Solovyovun ən yaxın dostu "Taşir" şirkətlər qrupunun rəhbəri Samvel Karapetyandır. Onlar ailəvi dostdurlar. Karapetyanın uşaqlarının xaç atası Solovyovdur. Solovyovun bu addımı Rusiyanın dövlət siyasətinə ziddir. Çünki bu günlərdə Azərbaycanla Rusiya arasında informasiya təhlükəsizliyi sahəsində sənəd imzalandı. Bu sənədin mürəkkəbi qurumamış o, informasiya savaşında Karapetyanın mövqeyini müdafiə etdi. Ya görünür, Karapetyan ondan bunu istəyib, yaxud da o, özü bunu Karapetyana kompliment edir. Əlbəttə, mütləq şəkildə Rusiyadakı səfirliyimiz "Rusiya-1" kanalının rəhbərliyinə etiraz etməlidir. Bu cür təxribatlar davam edəcəyi təqdirdə Azərbaycan tərəfindən də mənim kimi Rusiyadakı tanınmış jurnalistlərin çıxışlarına imkanlar tanınmalıdır. Onlara hər hansı bir əngəl törədilməməlidir. Bizə də "yaşıl işıq" yandırılmalıdır. Azərbaycan XİN və o ölkədəki səfirliyimiz nota verməlidir. Ortada iradə və tələb olmalıdır, sadəcə rəsmilər deyil, Rusiya vətəndaşı olan azərbaycanlılar da bu sayaq təxribatların dayandırılmasını tələb etməlidirlər. Bu tələb olmasa, belə məsələləri ört-basdır edəcəklər. Nota verib, bu cür təxribatlara yol verənlərin cəzalandırılmasını tələb etməliyik".

**Ayyət Əhməd**

# Türk dünyasının vahid platforması inşa olunur

## Prezident Türkmənistanda önəmli görüşlər keçirdi



**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iyunun 29-da Türkmənistana rəsmi səfər edib. Səfərin məqsədi Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısında iştirak etməkdir.**

Prezident İlham Əliyevi Türkmənistan Nazirlər Kabineti sədrinin və xarici işlər nazirinin müavini Rəşid Meredov və digər rəsmi şəxslər qarşılayıblar. Səfər çərçivəsində İlham ƏliyevinTürkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov və Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovla görüşü olub.

**Beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli "Şərq"ə bildirib ki, bu səfərlər türk dünyasının vahid platformasını inşa etmək niyyəti daşıyır:** "Dəyişən dünyada türk ölkələrinin mütləq bir birlik yaratmaq imkanı var. Bu birliyin yaranma addımı ilk olaraq Azərbaycan-Türkiyə münasibətləri ilə atıldı. Daha sonra prezidentin Özbəkistan səfəri, Qırğızıstan ilə əməkdaşlıq müqaviləsinin imzalanması, Qazaxıstan prezidentinin Azərbaycana gözlənilən səfəri, Türkmənistan səfəri önəmli siqnallar ötürür. Bütün bunların hamısı onu göstərir ki, mərkəz inşa etmək prosesi gedir. Bu birlik öncə iqtisadi baxımdan mümkün olacaq. Ona görə ki, əvvəlcə kommunikasiyaların qurulması prosesi gedir. Bu kommunikasiyalara Qarabağ müharibəsinin nəticəsi olan Zəngəzur dəhlizi üzərindən çıxış, Xəzəryanı ölkələrin, xüsusən də Türkmənistan və Qazaxıstan vasitəsilə ümumi bir istiqamətin inşası daxildir. Köhnə dünya iki vacib mərkəz arasındadır. Bunlardan biri okeanın digər tərəfindəki ABŞ-dır. Lakin okeandan bu tərəfdə Böyük Britaniya və Çin arasında kommunikasiyanın qurulması prosesi gedir. Bunun üzərində əlaqələndirici iki böyük ölkə var: Azərbaycan və Türkiyə. Bu proseslərdə vahid türk dünyası mərkəz arasında körpü rolu oynayacaq".

**Nihat Müzəffər**

# "Ermənistan özü üçün dərs çıxarmalıdır"

## Ədalət Verdiyev: "Zəngəzurda hərbi hissələrimizin yerləşdirilməsi Azərbaycanın gələcək hədəflərinin müəyyən konturlarını görməyə imkan verir"



**"Zəngəzurda hərbi infrastrukturun yaradılması, o cümlədən komando hissələrinin açılması bu ərazilərdə təhlükəsizliyin və sabitliyin təmin olunması üçün mühüm faktor hesab edilir".**

*Bu barədə hərbi ekspert Ədalət Verdiyev "Şərq"ə açıqlamasında bildirib. O hesab edir ki, bu hərbi hissələrin yaranması Azərbaycanın gələcək hədəflərindən xəbər verir:* "Birgə bəyanatdakı öhdəliklərini yerinə yetirməyən Ermənistan Azərbaycanın Qərbi Zəngəzur ilə Şərqi Zəngəzurun sərhədlərində yerləşən hərbi hissələrindən özü üçün dərslər çıxarmalıdır. Xatırladaq ki, artıq bu bəyanatın üzərindən 18 ay keçməsinə baxmayaraq, nə erməni silahlıları Qarabağdan çıxarılıb, nə də Azərbaycanın Naxçıvanla maneəsiz əlaqəsi təmin olunub. Həmçinin Azərbaycandan olan məcburi köçkünlər doğma yurd-yuvalarına qayıtmayıblar.

Belə olan halda Zəngəzurda hərbi hissələrimizin yerləşdirilməsi həm də Azərbaycanın gələcək hədəflərinin müəyyən konturlarını görməyə imkan verir. Hər bir halda bu hərbi hissələrin açılması Azərbaycan Ordusunun böyük potensialının artmasına, Azərbaycanın Ermənistan üzərində güc balansını daim öz xeyrinə saxlamasına münbit şərait yaradır".

**Çimnaz Şahlar**



# Ya quru sərhəd açılmalıdır, ya da ağlabatan izahat verilməlidir

## Epidemioloji vəziyyəti əsas gətirməklə artıq uşaqları belə inandırmaq olmaz

**Dünya ölkələrinin böyük əksəriyyəti quru sərhədlərini bir il öncədən açıb. Azərbaycanın sərhədləri isə hələ də bağlıdır. Quru sərhədlərini insanlar yalnız hökumətin xüsusi icazəsi ilə keçə bilir. Bu da haqlı olaraq cəmiyyətin və ictimaiyyətin narazılığına səbəb olur.**

Xaricdə, xüsusən də həmsərhəd ölkələrdə yaşayan soydaşlarımız ailələri ilə birgə ölkəsinə gəlibgedən zaman çox ciddi problemlərlə üzləşirlər. Təyyarə biletləri çox baha olduğundan azbüdcəli ailələr ala bilmir. Nəticədə bir çox insan üçün ailəsi, doğmaları ilə görüşmək əlçatan deyil. Eyni zamanda, sərhədyanı ticarətlə məşğul olanlar da quru sərhədlərinin bağlı olmasından ciddi itkilərə məruz qalır.

Qeyd edək ki, sadəcə, Azərbaycan vətəndaşları deyil, qonşu Gürcüstanın rəsmiləri də yaxın günlərdə Azərbaycanın Gürcüstanla quru sərhədini açacağına ümid edir.

Azərbaycan-Gürcüstan biznes-forumunda iştirak edən Gürcüstan səfiri Zurab Pataradzenin sözlərinə görə, quru sərhədlərinin bağlı olması fonunda iki ölkə arasında aviasiya əlaqələri getdikcə artırılır və "Azərbaycan Hava Yolları" QSC (AZAL) gələn aydan etibarən Bakıdan Tbilisiyə həftədə 3 dəfə reyslər həyata keçirəcək.

Qeyd edək ki, Bakı-Tbilisi aviareyslərini AZAL-ın aşağı büdcəli törəməsi "Buta Airways" də gündəlik yerinə yetirir.

**İqtisadçı-ekspert Natiq Cəfərli isə hesab edir ki, Azərbaycanın quru sərhədlərinin bağlı olmasının koronavirus pandemiyası, dünyadakı epidemioloji vəziyyətlə heç bir əlaqəsi yoxdur.** "Ən azından yoluxmanın minimuma enməsi, bütün dünya ölkələrinin karantin rejimindən çıxması fonunda bunun məntiqi izahı yoxdur. Çünki Azərbaycanın qonşu ölkələri quru sərhədlərini aylar öncə, hətta bəzi ölkələr illər öncə açıb. Deməli, Azərbaycanın quru sərhədlərinin bağlı saxlanılmasının başqa səbəbləri var, dövlət orqanları buna aydınlıq gətirməlidir. Bildiyim qədəri ilə Gürcüstan tərəfi bununla bağlı Azərbaycanla danışıqlar aparıb. Ölkəmizdə epidemioloji vəziyyət kifayət qədər sabitdir. Peyvənd olunanların sayı 3 milyona çatıb. Sərhədlərin açılması və yumşalmaların həyata keçirilməsi üçün münbit şərait var".

**N.Cəfərlinin sözlərinə görə, Azərbaycanın quru sərhədlərinin bağlı olması Azərbaycan Hava Yolları (AZAL) QSC-nin və onun törəmə şirkətlərinin işinə yarayır:** "İnsanlar Gürcüstanda yaşayan qohumlarını ziyarət etməyə və ya gedib oradakı evlərinə baş çəkməyə məcburdurlar. Quru sərhədinin bağlı olması həmin insanları hava yolundan istifadə etməyə məcbur edib. Təyyarə biletlərinin qiymətləri isə kifayət qədər yüksəkdir. Bu qədər tələbin olmasına baxmayaraq, hələ də Azərbaycan tərəfinin israrla quru sərhədini bağlı saxlaması AZAL-ın maraqlarına uyğundur. Əslində səfirin reyslərin artırılması ilə bağlı açıqlamasından da bu, açıq-aşkar görünür. Əgər dövlətin fərqli arqumenti varsa, o zaman hökumət orqanları quru sərhədlərinin hansı səbəbdən bağlı olması ilə bağlı ağlabatan bir izahat verməlidir. Çünki quru sərhədlərinin epidemioloji vəziyyətlə bağlı qapalı saxlanılmasını idia etmək absurddur. Buna artıq uşaqları belə inandırmaq olmaz. Çox paradoksal bir vəziyyət yaranıb. Azərbaycan həm turizm potensialını inkişaf etdirmək istəyir, həm də quru sərhədlərini bağlı saxlayır. Düşünürəm, yaxın günlərdə hökumət ya ağlabatan izahat verməli, ya da sərhədləri açmalıdır".

**Şəymən**

# "Şirkətlərimiz Gürcüstan iqtisadiyyatına önəmli sərmayələr yatırıb"

## Elşən Bağırzadə: "Qarabağın işğaldan azad edilməsindən sonra yeni imkanlar ortaya çıxmışdır"



**Dünən Azərbaycan-Gürcüstan biznes forumu keçirilib. Forumda iki ölkə arasındakı iqtisadi əlaqələrin, ticarət tərəfdaşlığının artan xətt üzrə inkişaf etməsi barədə müzakirələr gedib.**

Forumda iştirak edən Azərbaycanın Gürcüstandakı səfirliyinin məsul əməkdaşı Sərxan İsmayılov deyib ki, Azərbaycanla Gürcüstan arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib və qarşılıqlı maraqlar üzərində qurulub. Ölkələrimiz arasındakı münasibətlər dünyanın digər qonşu ölkələri üçün nümunədir. Bu gün Azərbaycan ilə Gürcüstan arasında ticarət dövriyyəsinin artması deyilənləri sübut edir.

Onun sözlərinə görə, 2022-ci ilin yanvar-may ayları ərzində ölkələrimiz arasındakı ticarət dövriyyəsi 390 milyon ABŞ dolları təşkil edib: "COVID-19 pandemiyasının dünya üzrə yayılmasına baxmayaraq, əminliklə söyləmək olar ki, 2022-ci il ərzində ölkələrimiz arasında ticarət dövriyyəsi 1,0 milyard ABŞ dollarını keçəcək".

S.İsmayılov deyib ki, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, 2021-ci ildə Azərbaycan ilə Gürcüstan arasında ticarət dövriyyəsi 765 milyon ABŞ dolları təşkil edib.

S.İsmayılov həmçinin ölkəmizin Gürcüstanın ən böyük ticarət tərəfdaşı olmaqla, bu ölkəyə ən çox sərmayə yatıran ölkələrdən biri olduğunu deyib.

Onun sözlərinə görə, Azərbaycan şirkətləri tərəfindən indiyədək Gürcüstan iqtisadiyyatına 3,5 milyard ABŞ dollarından çox sərmayə qoyulub. Təkcə SOCAR tərəfindən Gürcüstan iqtisadiyyatına təxminən 1,5 milyard dollar həcmində investisiya yatırılıb. Azərbaycan şirkətləri, o cümlədən SOCAR Gürcüstanın ən böyük vergi ödəyicilərdir. Həmçinin, bu şirkətlər tərəfindən yatırılan sərmayələr hesabına Gürcüstanda minlərlə iş yeri yaradılıb.

Diplomat deyib ki, statistikaya əsasən, Gürcüstanda 3000-ə yaxın Azərbaycan kapitallı şirkət qeydiyyatdan keçib və onlardan təxminən 1000-dən artığı aktivdir.

Azərbaycan şirkətləri əsasən enerji, nəqliyyat və kommunikasiya, tikinti, istehsalat, mehmanxana və restoran xidmətləri, daşınmaz əmlak, maliyyə və dağ-mədənə sərmayə qoyublar. Eyni zamanda, Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində, o cümlədən qeyri-neft sektorunda fəaliyyət göstərən Gürcüstan kapitallı 600-ə yaxın şirkət qeydiyyatdan keçib və onlar da uğurlu fəaliyyət göstərirlər.

Qeyd edək ki, Azərbaycan-Gürcüstan biznes forumu çərçivəsində Azərbaycanın Ələt Azad İqtisadi Zonası ilə Gürcüstannın "Hualing Kutaisi" Azad Sənaye Zonası arasında Əməkdaşlıq Memorandumu imzalanıb. Sənədi Ələt azad iqtisadi zonasının İdarə heyətinin sədri Valeh Ələsgərov və Xualinq azad sənaye zonasının baş direktoru Soso Nibladze imzalayıb. Tədbirdə qeyd edilib ki, memorandum iki ölkənin iqtisadi əməkdaşlığını daha da genişləndirəcək.

**Biznes forumu dəyərləndirən iqtisad üzrə fəlsəfə doktoru, iqtisadçı -ekspert Elşən Bağırzadə isə "Şərq" ə açıqlamasında Azərbaycanla Gürcüstan arasındakı iqtisadi əlaqələrin nisbətən stabil inkişaf edən əlaqələr olduğunu deyib:** "İki ölkə qonşudur. Gürcüstanda çoxlu sayda Azərbaycan mənşəli əhali yaşayır. Gürcüstan Azərbaycan üçün Qərbə açılan dəhlizdir. İki ölkə arasında enerji, nəqliyyat, turizm başda olmaqla bir çox sahələrdə sıx iqtisadi əlaqələr qurulmuşdur. Azərbaycanın bu günə qədər həyata keçirdiyi ən mühüm beynəlxalq enerji və nəqliyyat layihələrində Gürcüstan aktiv iştirak edir. Başda SOCAR olmaqla, Azərbaycan şirkətləri Gürcüstan iqtisadiyyatına önəmli həcmdə investisiyalar yatırmışdır. Qarabağın işğaldan azad edilməsindən sonra bu əlaqələr yeni aspektlər qazanmış və daha da inkişaf etməsi üçün yeni imkanlar ortaya çıxmışdır. Bu imkanlardan yararlanmaq lazımdır. Xüsusilə gün keçdikcə dəyəri daha da artan Orta Koridorun önəmli bir parçaları kimi iki ölkənin bundan sonra bir-birinə daha çox ehtiyacı yaranacaqdır".

İqtisadçının sözlərinə görə Ələt Azad İqtisadi Zonası və Hualing Kutaisi Azad İqtisadi Zonası da bu Orta Koridodun əhəmiyyətli infrastrukturlarıdır və bunlar arasında əlaqələrin dərinləşdirilməsi ümumi məqsədə xidmət edir. Bu əlaqələr həm təcrübə mübadiləsi, həm də həmin iqtisadi zonalardakı iqtisadi subyektlərin arasında qurulacaq faydalı biznes əməkdaşlıqları ilə inkişaf edə bilər.

**Şəymən**




# NATO qazandı, Rusiya uduzdu

## 1340 kilometrlik yeni cəbhə açıldı

**Madriddə NATO liderlərinin sammiti baş tutub. Sammitdən əvvəl Türkiyə, Finlandiya, İsveç və NATO liderləri arasında kritik görüş keçirilib.**




Görüşdən dərhal sonra təşkilatın genişlənməsinə imkan verəcək bir memorandum da imzalanıb. Razılaşma nəticəsində Finlandiyanın NATO-ya daxil olması ilə Rusiyaya qarşı yeni 1340 kilometrlik cəbhə yaranacaq. Bu vəziyyət NATO üçün böyük qazanc, Rusiya üçün isə itki kimi qələmə verilir.

İspaniyanın paytaxtı Madriddə keçirilən sammitdən əvvəl Türkiyə, İsveç, Finlandiya və NATO liderləri arasında keçirilən görüş yüksək rəmzi dəyərə malik tarixi uzlaşma və birlik mesajı ilə yadda qalıb.

NATO dünən axşam imzalanan tarixi memorandumla Rusiyaya açıq mesaj göndərib və əksər ekspertlərin fikrincə, təşkilat bununla qeyri-adi qazanc əldə edib.

Beləliklə Rusiyanın Ukraynaya müdaxiləsi ilə NATO xeyli genişləndi. Çünki Rusiya Finlandiya kimi neytral ölkəni NATO düşərgəsinə sıxışdırmaqla onun şimal sərhədində 1340 kilometrlik yeni cəbhə sahəsi yaratdı.

Finlandiyanın üzvlüyü həm də NATO-ya yeni strateji konsepsiya yaratmağa böyük üstünlüklər verəcək. NATO-nun yeni konsepsiyasında "Ən böyük təhdid Rusiyadır" ifadəsi də yer alacaq.

Dördtərəfli zirvədə əldə olunan konsensusu xarici media "Putin üçün uğursuzluq" kimi şərh edib.

Finlandiya ilə Rusiyanı həqiqətən bir çay ayırır. İkinci Dünya müharibəsində iki dəfə savaşan ölkələr o zamandan bəri uzun illər sülh münasibətlərini qoruyub saxladılar. Lakin bu sərhəd tezliklə şərqlə qərbi ayıran geosiyasi qırılma xəttinə çevrilə bilər.

Finlandiya ilə Rusiya arasındakı 1340 kilometrlik sərhədin əhəmiyyətli hissəsi meşəlikdir. Müharibə olarsa, bu şimal xətti mümkün cəbhələr arasında birinci olacaq. NATO Rusiyanın əvvəlki dünya müharibəsində keçə bilmədiyi xətti keçərək Rusiyanın ən böyük şəhərlərindən biri olan Sankt-Peterburqa asanlıqla çata və Baltik dənizini Rusiya üçün yararsız hala sala bilər.

Finlandiya NATO-ya üzv olduqdan sonra Rusiya bu xətdə yeni hərbi istehkamlar inşa etməlidir ki, bu da Rusiya ilə Alyans arasında ən uzun sərhəd olacaq. Bu o deməkdir ki, ruslar oturuşmuş mərkəzini itirirlər.

Rusiya bundan sonra qüvvələrini parçalayaraq, həm böyük vəsait xərcləyəcək, həm də bu yeni cəbhə bölgəsində yerləşməyə məcbur olacaq.

NATO dünən verilən qərarla Qərbdə Şimal dənizindən Aralıq dənizinə qədər olan bütün sərhəd xəttini Rusiyaya qarşı bağladı.

Beləliklə, NATO-nun ən böyük nailiyyəti odur ki, hətta soyuq müharibə dövründə də yanına çəkə bilmədiyi Finlandiya və İsveçi kluba üzv edərək, şimalda Rusiyaya qarşı yeni cəbhə açmaq imkanı əldə etdi.

**Turan Can**

# Ankara ayağına gələn fürsətdən yararlandı

## Türkiyə artıq həm daxildə, həm də xaricdə terrorçuluğa qarşı rahat mübarizə apara biləcək

**Türkiyə İsveç və Finlandiyanın NATO-ya üzv qəbul edilməsinə razılıq verib.**

**Türkiyə Prezident Administrasiyasının məlumatına görə, sözügedən razılıq Türkiyənin tələblərinin qəbul edilməsi fonunda əldə edilib.**

Hər iki ölkə PKK və onun qollarına qarşı mübarizədə Türkiyə ilə tam əməkdaşlıq etmək barədə razılığa gəliblər. Bu istiqamətdə terrorizmlə mübarizədə kəşfiyyat məlumatlarının mübadiləsi üçün strukturlaşdırılmış əməkdaşlıq mexanizmi yaradılacaq.

Həmçinin müdafiə sənayesi məhsullarının tədarükünə qoyulan embarqo aradan qaldırılacaq, bu istiqamətdə əməkdaşlıq genişləndiriləcək. Eləcə də Finlandiya və İsveçin Avropa İttifaqının təhlükəsizlik mexanizmlərində mümkün qədər geniş iştirakına dəstək veriləcək.

NATO baş katibi Yens Stoltenberq isə bildirib ki, Finlandiya və İsveç terrorda ittiham olunanların ekstradisiyası üçün Türkiyə ilə işləməyə hazır olacaqlar, lakin bu ölkələrin qanunları əsasında qərarlar veriləcək.

**Politoloq Məhəmməd Əsədullazadə isə "Şərq"ə açıqlamasında deyib ki, Türkiyənin İsveç və Finlandiyanın NATO-ya üzv qəbul edilməsinə veto qoyması uzun müzakirələrdən sonra Türkiyənin şərtlərinin tələblərinin qəbul edilməsi ilə nəticələndi:** "PKK və YPG-ni dəstəklədikləri üçün Türkiyə bu ölkələrin alyansa qəbul edilməsinə etiraz edirdi. Artıq Finlandiya və İsveçin Türkiyə əleyhinə siyasət aparması yolverilməz hesab olunacaq. Çünki hər iki ölkə terrorla mübarizə üzrə milli qanunvericiliyə düzəlişlər etmək öhdəliyini üzərlərinə götürüblər. İsveç təsdiq edib ki, yeni və daha effektiv "Terror Cinayətləri Qanunu" iyulun 1-dən qüvvəyə minəcək. Finlandiya və İsveç Türkiyənin təqdim etdiyi məlumatlar, sübutlar və kəşfiyyat məlumatları nəzərə alınmaqla, terrorda şübhəli bilinən şəxslərin deportasiya və ya ekstradisiya tələblərinə tez bir zamanda baxacaq.



Bundan əlavə, İsveç və Finlandiya Türkiyəyə qarşı müdafiə sənayesi sahəsində embarqo məhdudiyyətlərini qaldıraraq əməkdaşlığı artıracaq".

*Politoloqun sözlərinə görə, Türkiyə öz şərtlərini qəbul etdirməklə milli maraqlarından heç vaxt geri çəkilməyəcəyini və hər zaman terrora qarşı çevik mübarizə aparacağını və bu istiqamətdə heç kimə güzəştə getməyəcəyinin mesajını verdi:* "Bir növ Türkiyə öz beynəlxalq və daxili təhlükəsizliyilə bağlı narahatlıqlarını müttəfiqlərinə xatırlatmaq və səsini eşitdirmək üçün ayağına gələn fürsətdən istifadə etdi. Çünki Türkiyə faktiki olaraq İsveç və Finlandiyanın NATO üzvlüyünə qəbul ediləcəkləri təqdirdə onların terror təşkilatlarına və separatçı qruplara dəstək verməyəcəkləri barədə təkcə bu ölkələrdən təminat almır, eyni zamanda NATO çərçivəsində sözünü deyən, indiki qarışıq geosiyasi müstəvidə mövqeyini qoruyan, diktə edən bir dövlət olduğunu sübut etdi.

Növbəti mərhələdə Türkiyə Şimali Suriyada PKK-ya qarşı apardığı terror əməliyyatlarına start verəcək və NATO da bu məsələdə Türkiyəni dəstəkləməli olacaq".

**Şəymən Bayramova**

# "Biz kimə istəsək, ona da səs verəcəyik"

## Elçin Hüseynbəyli: "Ən dinamik cameə ədəbiyyat, ən dinamik qurum isə Azərbaycan Yazıçılar Birliyidir"

**Ötən ilin avqustunda cənab Prezident İlham Əliyev və ölkənin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Şuşada Molla Pənah Vaqifin erməni vandalları tərəfindən dağıdılmış məqbərəsinin bərpa olunduqdan sonra açılış mərasimində iştirak etdilər.**

Məqbərənin açılışı ənənəvi Vaqif Poeziya Günlərinə təsadüf etdi. Mərasimdə iştirak edən Xalq yazıçısı Anar cənab Prezidentə Azərbaycan Yazıçılar Birliyinin növbəti qurultayını oktyabr ayında Şuşada keçirmək istədiklərini dedi. Cənab Prezident də təklifə müsbət yanaşdı. Razılığını bildirdi. O gündən sonra AYB-nin növbəti qurultayının Şuşada keçiriləcəyi ehtimalı, bir növ kəsinləşdi. Lakin xalq yazıçısı bu günlərdə verdiyi açıqlamada qurultayın Şuşada keçirilməyəcəyini deyib. Səbəb kimi də Şuşada qurultayın keçirilməsi, iştirakçıların və qonaqların yerləşməsi üçün uyğun məkanın olmamasını göstərib: "Ona görə də qurultayın məkanını dəyişmişik. Qurultayın sentyabr ayında ya Bakıda, ya da Şabranda yeni inşa olunan Yaradıcılıq Evində keçirilməsi planlaşdırılır. Çünki avqust ayında həmin evin hazır olması gözlənilir". AYB sədri söyləyib ki, Şuşada yalnız Vaqif Poeziya Günləri keçiriləcək. ("Report.az").



"Hər bir qurultay nümayəndəsi sədrliyə namizədliyini irəli sürə bilər"

AYB-nin qurultayının dəqiq vaxtı hələ məlum deyil. AYB sədrinin dediklərinə istinad etsək, qurultayın sentyabr ayında keçirilməsi gözlənilir. Vaxt az qalıb. Lakin bəzi yazarlar bu fikirdədir ki, qurultaya az qalmasına baxmayaraq ədəbiyyat cameəsində susqunluq, hətta süstlük var. Bu mənada ki "onsuz da hər şey planlaşdırılıb, sədr də bəllidir. Maraqlı proseslər getmir...". Bəlkə hələ yaydır, istilər yazarları da həvəsdən salıb, bəlkə payıza yaxın ədəbi mühitdə bir canlanma yarandı. Nə bilmk olar

Əməkdar İncəsənət Xadimi, **AYB katibi, yazıçı Elçin Hüseynbəyli "Şərq"ə açıqlamasında AYB-nin qurultayının bu il ərzində keçirilməsinin nəzərdə tutulduğunu dedi:**

- Qarşıdakı aylarda həm də Beynəlxalq Vaqif Poeziya Günləri, avqustda isə Natəvanın Şuşada yubiley tədbirləri nəzərdə tutulur. Bunların hamısını uzlaşdırmaq lazımdır. Qurultay öncəsi məruzələr dinlənilib, kitab da çapa hazırdır. Əksinə, ədəbiyyatımızda çox maraqlı proseslər gedir. Əsərlər yazılır, tədbirlər keçirilir. Ən dinamik cameə ədəbiyyat, ən dinamik qurum isə Azərbaycan Yazıçılar Birliyidir. Kimsə bütün bunları görmürsə, onun problemidir. O ki qaldı sədr seçiminə, təşkilatımız demokratik qurumdur və hər bir qurultay nümayəndəsi sədrliyə namizədliyini irəli sürə bilər. Biz də kimə istəsək, ona da səs verəcəyik.

Qurultayın niyə Şuşada keçirilməməsinə gəlincə, E.Hüseynbəyli "bəli, qurultayın Şuşada keçirilməsi nəzərdə tutulurdu. Amma orda konfrans zalı, deyəsən, hələ hazır deyil. Ona görə də məkan, güman ki, dəyişəcək", söylədi.

**Məlahət Rzayeva**



# ABŞ-Azərbaycan münasibətlərində yeni mərhələ başlayır

## Bayden 907-ci düzəlişin ləğvi müddətini uzadıb

**ABŞ Prezidenti Cozef Bayden 907-ci düzəlişin ləğvi müddətini uzadıb. Bu barədə Prezident müvafiq qərar imzalayıb. Qeyd edək ki, 907-ci düzəliş ABŞ-ın Azərbaycana birbaşa hərbi yardımını qadağan edən "Azadlığa Dəstək Aktı"dır.**

Bunu ilk dəfə Senator Con Makkeyn təklif edib. Lakin qəbul olunmayıb. Daha sonra yenidən, Senator Con Kerrinin və erməni lobbi təşkilatlarının dəstəyi ilə konqresmen Ueyn Ouens Konqresdə irəli sürüb. Senator Riçard Luqar düzəlişin qəbul edilməsinin əleyhinə çıxış edib. Buna baxmayaraq, düzəlişi erməni lobbi təşkilatlarının güclü təzyiqi nəticəsində 1992-ci ilin oktyabrın 24-də Konqres qəbul edib.

O vaxt senator olmuş Cozef Bayden düzəlişin qəbulunda fəal rol oynayıb. Dəfələrlə onun dayandırılmasına qarşı çıxış edib. 2001-ci ilin 11 sentyabr hadisələrindən sonra Azərbaycanın beynəlxalq terrorizmlə mübarizədə dəstəyini təmin etmək məqsədilə ABŞ Konqresi prezidentə düzəlişin hüquqi qüvvəsini dayandırmaq səlahiyyəti verib.

**"Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları" Mərkəzinin sədri, politoloq Samir Hümbətov "Şərq"ə açıqlamasında bildirib ki, son zamanlar ABŞ və Azərbaycan liderləri səviyyəsində münasibətlərin qurulması, genişləndirilməsi, qarşılıqlı səfərlər, əslində hər iki ölkənin əlaqələrinin yeni bir mərhələyə keçdiyini göstərir:** "Nəhayət, sonuncu olaraq, Prezidentimizin xarici siyasət üzrə köməkçisi Hikmət Hacıyevin ABŞ-a səfəri və Ağ Evdə qarşılanması Azərbaycana verilən dəstək idi. Görüş prosesindən sonra hər kəs anladı ki, Amerika ölkəmizə qarşı mütləq şəkildə bir jest edəcək. Eyni zamanda hansısa məsələlərdə müəyyən qədər dəstək verə bilər. Belə də oldu. Artıq 907-ci düzəlişin dayandırılması ilə bağlı fikirlər mövcuddur. Düşünürəm ki, ləğv olunması ehtimalı var. Əlbəttə, burada əsas maneə erməni lobbisinin ABŞ Konqresinə basqısıdır. Amma Ermənistan sülhə gedən yolda Azərbaycanın üzərinə qoyulmuş sanksiyaların əngəllənməsinə maneçilik törətməyəcək".

*Politoloqun qənaətincə, Rusiya-Ukrayna müharibəsi fonunda ABŞ-ın Azərbaycana böyük dəstək göstərməsinin əsas səbəblərindən biri rəsmi Moskvanın rəsmi Kiyevdən sonra növbəti münaqişə ocağının Qarabağda, yaxud da digər ərazilərdə yaranmasının qarşısını almaqdır:* "Həmçinin Xəzər karbohidrogen yataqlarının Azərbaycan vasitəsilə xaricə çıxarılmasını təmin etməkdir. Bunların hər birini nəzərə alaraq, hesab etmək olar ki, problemə çevrilmiş 907-ci düzəlişin aradan qaldırılması növbəti mərhələdə baş tuta bilər".

**Sücayət Mehti**

# Xameneyiyə mahnı oxumaq dini təxribatdır

## Misir Mərdanov: "Bu kimi halların qarşısını almaq üçün cəmiyyətin qınağı olmalıdır"



**Ötən gün Azərbaycan məktəblərindən birində şagirdlərə İranın ali dini lideri Xameneyiyə həsr olunan mahnı oxudulması ilə bağlı görüntüləri yayılıb.**

Yevlax rayon məktəblərinin birində çəkildiyi iddia olunan görüntülərdə hicablı müəllimin müşayiəti və şagirdlərin dili ilə "Salam Fərmandeh" (Salam komandir) mahnısı ifa olunub.Yayılan video cəmiyyətdə birmənalı qarşılanmayıb. İnsanlar bu hadisəni dini təbliğat kimi qiymətləndirib. Şagirdləri buna alət edən müəllim sərt tənqidlərə məruz qalıb.

**Sabiq təhsil naziri Misir Mərdanov hadisə ilə bağlı "Şərq"ə açıqlama verib. O bildirib ki, bu kimi halların qarşısını almaq üçün cəmiyyətin qınağı olmalıdır:** "Mən elə düşünürəm ki, cəmiyyət belə məsələləri pisləyirsə, bu elə onun qarşısını almaq istiqamətində atılmış bir addımdır. Başqa nə edə bilərik ki?! Hər halda bu hal ayrı-ayrı adamların yox, bütün cəmiyyətin qınağına məruz qalsa, bir nəticə əldə etmək mümkündür".

*Qeyd edək ki, Mərkəzi Aran Regional Təhsil İdarəsi məsələ ilə bağlı araşdırma aparıldığını və məktəbdə təlim-tərbiyə prosesini, idarəetməni düzgün təşkil etmədiyinə görə təhsil müəssisəsinin direktoruna töhmət verildiyini bildirib.*

*Həmçinin tədris proqramına və fənninə aid olmayan materialları təbliğ etdiyinə görə müəllimə sonuncu xəbərdarlıq edilib, şiddətli töhmət verilib.*

**Çimnaz Şahlar**



# Ukraynanın 5 milyard dollara ehtiyacı var

## Volodimir Zelenski: "Gələn il vəziyyət həm Ukrayna, həm də digər ölkələr üçün daha pis ola bilər"

**Ukrayna Prezidenti Volodimir Zelenski Madriddə keçirilən NATO sammitində liderlərə videokonfrans vasitəsilə müraciət edib.**

"Şərq" NTV-yə istinadən xəbər verir ki, Ukrayna lideri Zelenski açıqlamasında NATO-nun açıq qapı siyasətini köhnə Kiyev metrosunun turniketlərinə bənzədib. Onun sözlərinə görə, onlar açıq görünür, amma içəri girəndə pulunu verməmisənsə, turniketlər bağlanır. Zelenski Ukraynanın müdafisəsi üçün 5 milyard dollara ehtiyacı olduğunu bəyan edib: "Ukrayna yetərincə bədəl ödəmədimi? Həm Avropanın, həm də bütün sivilizasiyanın qorunub saxlanmasına verdiyimiz töhfə hələ də yetərli deyilmi? Bəs sizə başqa nə lazımdır? Ukraynanın özünümüdafiə üçün 5 milyard dollara ehtiyacı var. Gələn il vəziyyət həm Ukrayna, həm də digər ölkələr üçün daha pis ola bilər. Bunlar böyük ehtimalla NATO-ya üzv ölkələr olacaq. Rusiya onlara da hücum edəcək".

Ukrayna Prezidenti Zelenski sonda qeyd edib ki, Rusiya Ukraynadan sonra Litvanı əsarət altına almaq istəyir.

**Çimnaz Şahlar**

# "Türkiyə öz istəklərinə nail oldu"

## Turab Rzayev: "Finlandiya və İsveçrə terror təşkilatlarını dəstəkləməyəcəyini öz üzərinə götürdü"



"Rusiya buna müqavimət göstərəcək gücdə deyil"

**Dünən İsveçin Baş naziri Maqdalena Andersson, Finlandiyanın Prezidenti Sauli Niinistö və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın birgə görüşündə NATO-ya üzvlüklə bağlı razılıq əldə olunub. Üç ölkə başçısının görüşündə əldə olunan razılıq nəticəsində Türkiyə İsveç və Finlandiyanın NATO-ya üzvlüyünə qarşı veto hüququndan imtina edib.**

Müzakirələrdən sonra Finlandiya və İsveç liderləri terror təşkilatları tərəfindən Türkiyəyə qarşı həyata keçirilən hücumları açıq və birmənalı şəkildə pislədiklərini, həmçinin terror təşkilatları ilə əlaqəli şəxslərin fəaliyyətinin qarşısını almağı öhdələrinə götürdüklərini bəyan ediblər. Bundan başqa, Finlandiya və İsveç Türkiyənin tədqim etdiyi faktlar və kəşfiyyat məlumatları əsasında terrorda şübhəli bilinən şəxslərin deportasiya və ya ekstradisiya tələblərini anında icra etməyə vəd veriblər.

Madriddə keçirilən danışıqlardan sonra Türkiyə, İsveç və Finlandiya üçtərəfli birgə memorandum imzalayıb.

Sözügedən məsələ ilə bağlı "Şərq"ə danışan siyasi şərhçi Turab Rzayev bildirib ki, razılaşmanı Türkiyə üçün müəyyən qədər əhəmiyyətli hesab etmək olar: "Çünki Türkiyə öz istəklərinə nail oldu. Finlandiya və İsveçrə Türkiyəyə qarşı terror təşkilatlarını dəstəkləməyəcəyini öz üzərinə götürdü. Eyni zamanda Türkiyənin hərb sənayesinə və ordusuna qoyulmuş sanksiyalar və embarqolar aradan qaldırıldı. Artıq Türkiyə istədiyi silahları və silah detallarını ala biləcək. Bütün bunları Türkiyə üçün müsbət saymaq olar. Üstəlik, bu ölkələr həlelik NATO-ya qəbul edilməyib. Hələ ki, İsveç və Finlandiyaya NATO-ya dəvət edilməyə icazə verilib. Türkiyə burada əsas rol oynayacaq. NATO və Türkiyədən ibarət bir komissiya bu prosesi izləyəcək. Əgər bu ölkələr verdiyi sözlərə əməl etməzsə, o zaman müdaxilə etmək imkanı yaranacaq. Əsas məsələ Türkiyənin istədiyini əldə etməsidir".

T.Rzayevin sözlərinə görə, məsələnin pərdəarxası məqamları da ola bilər: "Burada Türkiyə əsas bazarlığı İsveç və Finlandiya ilə yox, Amerika Birləşmiş Ştatları ilə edib. Ola bilsin ki, Türkiyə ABŞ-dan bunun əvəzində həm də Suriyada əməliyyat aparmaq üçün icazə alıb.

Rusiyanın mövqeyi burada uğurlu olmadı. Türkiyənin İsveç və Finlandiyanın NATO-ya üzvlüyünün qarşısını açması Rusiya üçün böyük zərbə oldu. Amma hazırda Rusiya buna müqavimət göstərəcək gücdə deyil. Rəsmi Moskva məcbur müəyyən açıqlamalar verəcək. Lakin əvvəl-axır bu faktla barışmalı olacaq. Çünki Türkiyə Rusiya üçün çox əhəmiyyətlidir, onun Türkiyədən başqa müttəfiqi yoxdur. İndiki məqamda Rusiya Ankaradan bir çox məqamda asılıdır".

Çimnaz Şahlar



**Dünən Türkmənistan paytaxtı Aşqabadda 5 Xəzəryanı ölkənin (Azərbaycan, Rusiya, Qazaxıstan, Türkmənistan və İran) dövlət başçılarının zirvə toplantısı keçirilib. Zirvə toplantısında əməkdaşlıq və təhlükəsizlik məsələləri müzakirə edilib.**

Azərbaycan Prezidenti İlham Əliyev də Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısında iştirak etmək üçün iyunun 29-da Türkmənistana səfərə gedib.

Aşqabad Beynəlxalq Aeroportunda dövlət başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

# Türkmənistan Azərbaycan üçün əhəmiyyətli dövlətlərdən biridir

## Qarşılıqlı əlaqələr, səfərlər bundan sonra daha da inkişaf etdiriləcək

Prezident İlham Əliyevi Türkmənistan Nazirlər Kabineti sədrinin və xarici işlər nazirinin müavini Rəşid Meredov və digər rəsmi şəxslər qarşılayıblar. Prezident İlham Əliyevin Aşqabadda Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov ilə görüşü olub.

**Siyasi şərhçi Azər Həsrətin "Şərq"ə açıqlamasına görə, Xəzəryanı ölkələrin dövlət başçılarının Aşqabad sammiti və sammit çərçivəsində ikitərəfli və çoxtərəfli görüşlərin keçirilməsi 5 ölkənin ticarət, tranzit, enerji, kənd təsərrüfatı və turizm sahələrində inkişaf etməsində öz töhfəsini verəcək:** "Əvvəla onu deyim ki, Türkmənistan bizim üçün son dərəcə əhəmiyyətli türk dövlətlərindən biridir. Bu mənada ölkə başçısının Aşqabad səfəri istənilən halda diqqətəlayiq bir haldır.

Ölkələrarası münasibətlərin daha da inkişaf etdirilməsində bu cür səfərlərin çox böyük siyasi əhəmiyyəti var. Üstəlik, Türkmənistanın yeni Prezidenti Sərdar Berdiməhəmmədov olandan Azərbaycanın dövlət rəhbəri ilk dəfədir Türkmənistana rəsmi səfər edir. Bunun özü də kifayət qədər əhəmiyyətli bir nüansdır. Dünyada gedən mürəkkəb proseslər fonunda türk dövlətləri arasında əlaqələrin genişlənməsi Türk Birliyinin güclənməsinə bir töhfədir. Digər türk dövlət başçılarının da qarşılıqlı səfərlərinin tezləşməsi də bunu deməyə əsas verir. Təsadüfi deyil ki, artıq Qazaxıstan prezidentinin avqust ayında Azərbaycana dövlət səfəri edəcəyi haqqında məlumat verilib. Çox güman Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısından sonra Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistana, o cümlədən də Sərdar Berdiməhəmmədovun Azərbaycana rəsmi dövlət səfərləri haqqında müəyyən danışıqlar gedəcək".

Şəymən

# İsrail bizə dost ölkədir

## Azərbaycanlıların yəhudi diasporası ilə həmişə güclü əlaqələri olub



**"Azərbaycanın yəhudi diasporası ilə əlaqələri çox dərindir. Yəhudilərlə azərbaycanlılar uzun müddət bir-biri ilə dost və qarşılıqlı anlaşma şəraitində yaşamış, bir-birinə mənəvi dəstək veriblər". Bu sözləri Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun İsrail səfərini "Şərq"ə şərh edən siyasi analitik, politoloq Turab Rzayev deyib.**

Azərbaycan-İsrail münasibətlərinin inkişafına toxunan politoloqun sözlərinə görə, hələ sovetlər dövründə Azərbaycanın mühacirətdə olan ziyalılarının yaşadıqları ayrı-ayrı ölkələrdəki yəhudi diasporları ilə güclü əlaqələri olub: "Azərbaycan müstəqilliyini elan etdikdən sonra da suverenliyimizin tanınmasında, yeni iqtisadi-siyasi əlaqələrin qurulmasında, xüsusilə Böyük Britaniya, Amerika Birləşmiş Ştatları və digər böyük dövlətlərlə əlaqələrin qurulmasında yəhudi diasporlarının çox böyük əməyi olub. Qarabağın işğal faktoru ilə əlaqəli də İsrail rəhbərliyi hər zaman Azərbaycanın ərazi bütövlüyünü tanıdığını açıq bəyan edib. İkinci Qarabağ müharibəsi zamanı da İsrailin Azərbaycana texnoloji-siyasi dəstəyini gördük. İkinci Qarabağ müharibəsində Azərbaycanın tarixi zəfər qazanmasında bir çox faktor həlledici əhəmiyyət kəsb edir, bu faktorların arasında İsraildə aldığı müasir silahların istifadəsi və İsrailin Bakıya siyasi dəstəyi də mühüm yer tutur. Hesab edirəm ki, xaricdəki Azərbaycan diasporası ilə yəhudi lobbisi arasında müəyyən koordinasiyalar qurulmalı və müxtəlif ölkələrdə bir- birinə dəstək nümayiş etdirməlidirlər".

Şəymən

# Hələ başlanğıcdır, NATO-da daha da genişlənəcək

## Rusiyanın oduna hegemonluq eşqinə düşən Çin də yanacaq

**ABŞ Prezidenti Cozef Bayden NATO-nun Madriddə keçirilən sammiti çərçivəsində alyansın Baş katibi Yens Stoltenberqlə görüşündə Birləşmiş Ştatların bütün Avropada hərbi mövcudluğunun artıracağını deyib. ABŞ Prezidentinin sözlərinə görə, NATO bütün istiqamətlərdə - havada, quruda və dənizdə təhdidləri dəf etməyi bacarmalıdır. Cozef Bayden, həmçinin Avropaya əlavə olaraq F-35 döyüş təyyarələrindən ibarət iki eskadrilya göndəriləcəyini bildirib. Bundan əlavə, Vaşinqton Polşada ABŞ Silahlı Qüvvələrinin 5-ci Ordu korpusunun (quru qoşunları) qərargahının yerləşdiriləcək.**

*Milli Strateji Tədqiqatlar Mərkəzinin sədri, politoloq Natiq Mirinin "Şərq"ə açıqlamasına görə, ABŞ-ın Avropada hərbi mövcudluğunu artırması, döyüş təyyarələrinin ibarət eskadrilyaların göndərilməsi, 5-ci Ordu korpusunun qərargahının Polşada yerləşdirilməsi birbaşa Rusiyanın aqresiv siyasətinə hesablanmış adekvat reaksiyadır:* "Bu mənada Rusiyanın və onun mövqeyini müdafiə edən digər ölkələrin əks mövqeləri həlledici deyil. NATO-nn Şərqə doğru irəliləməsindən narahat olan Rusiya təhlükəsizliklə bağlı zəmanət tələbi iddiasında idi və bunu bəhanə edərək Ukraynaya qarşı hücum siyasəti yeridərək şəhərlərini güllələbaran etdi. Yəni əvvəllər Ukraynanın NATO-ya üzv olmasının qarşısını almaq istəyən Rusiya, bu gün bilavasitə Finlandiya və İsveç kimi Skandinaviya ölkələrinin NATO-ya üzv olmasına səbəb oldu. Buna görə Rusiyanın kimisə günahlandırması doğru deyil. Proseslər bununla da bitməyəcək. Avropanın Şərq sərhədində hərbi gücünü iki dəfə artıran NATO Polşa və Rumıniya kimi ölkələrdə öz mövcudluğunu möhkəmləndirməkdə davam edir. Onu da deyim ki, Putin daima "NATO-nun bizim sərhədlərə yaxınlaşmasının qarşısını aldıq" kimi mənasız arqumentlərlə "əzələ nümayiş" etdirir. Həm də artıq strateji cəhətdən məğlubiyyətin eşiyində olduğunu bilə- bilə. Reallıq odur ki, Rusiyanın Ukraynaya hücumundan öncə NATO ilə quru sərhədlərinin uzunluğu 1215 km idi, Finlandiya və İsveç alyansa üzv olduqdan sonra quru sərhədin uzunluğu iki dəfə artaraq 2478 km olacaq. Rusiyanın "qazancı" budur".



**NATO-nun artıq Rusiyanı tərəfdaş ölkə deyil, bir təhlükə kimi gördüyünü vurğulayan politoloqun sözlərinə görə, Madriddə keçirilən sammitdə Rusiyanın statusu dəyişəcək və yeni konsepsiyada bu dəyişiklik öz əksini tapacaq:** " Rusiyanın oduna hegemonluq eşqinə düşən Çin də yanacaq. Bu baxımdan deyə bilərəm ki, Baydenin NATO sammitindəki açıqlamaları sadəcə Rusiyaya barmaq silkələməsi deyil, həm də Çin üçün bir mesajdır. Fikir verirsinizsə, artıq sadəcə NATO ölkələri çərçivəsində deyil, Sakit Okean hövzəsində olan ölkələrin də ABŞ ətrafında toplanması prosesi gedir. Əvvəllər Hind və Sakit Okean hövzəsində üçlü, dördlü formatda birliklər yaradılmışdı. Bütün bu formatlar isə birbaşa hər hansı bir hərbi siyasət yeridəcəyi təqdirdə Çini mühasirəyə alaraq neytrallaşdırmağa hesablanmışdı. Deməyim odur ki, NATO-nun Avropada hərbi mövcudluğunu artırması qərarından Rusiya və Çin məmnun qalmayacaq. Ancaq dünyadakı geosiyasi proseslər nə Çinin, nə də Rusiyanın geosiyasi iradəsi ilə tənzimlənir. Ayrıca hər iki ölkə bir şeyi anlamalıdır ki, NATO-nun güclənməsi üçün Rusiya səbəb yaratdı, Çin isə artıq zəmin yaradır. Tayvanın hərbi güc ilə Çinin tərkibinə daxil edilməsi bəyanatı birbaşa ABŞ-ın hərəkətlənməsi üçün səbəb olacaq".

Şəymən

# Monopoliya ruzinin qarşısını kəsib

## Fermerlər becərdikləri kartofları bazara çıxara bilmirlər, məhsul sahələrdə çürüyür

**"Kartofun qiyməti kəllə-çarxa qalxıb. 1 kiloqramı 1 manat 35 qəpiyədir. Cəlilabad kartofu isə bazara çıxmır". Bu sözləri "Şərq"ə açıqlamasında iqtisadçı Fuad İbrahimov Cəlilabad fermerlərinin üzləşdiyi problemlə bağlı səsləndirib.**

Xatırladaq ki, Cəlilabad fermerləri becərdikləri kartofa alıcı tapılmamasından şikayət ediblər. "Report"un yerli bürosuna danışan fermerlər deyib ki, rayonda kartof əkin sahələrində çürüyür. Bir müddət əvvələdək qiymətlər münasib olsa da, son günlər məhsulun qiymətinin aşağı düşməsi fermerləri çətin vəziyyətə salıb: "Məhsulumuz boldur, amma alıcı yoxdur. Kartof yığımı davam edir. Məhsulun qiymətlərinin kəskin şəkildə aşağı düşməsi və məhsulun satışındakı durğunluq bizi narahat edir. Bir neçə həftə əvvəl 1 manata satdığımız faraş kartofun indiki qiyməti 25-30 qəpik civarındadır. Bu qiymətə məhsulun satılması isə ona çəkilən xərcləri belə ödəmir". Onlar qeyd edirlər ki, kartofu məcbur dəyər-dəyməzinə satırlar: "Sahədə qalsa, qurd yeyəcək. Həşəratlar daraşacaq, heç kim almayacaq. Riskli olsa belə, elə fermer var ki, məhsullarını hələ yığmayıb. Ola bilsin ki, qiymətlər qalxsın. Lakin havalar da isti keçir, kartofun torpağın altında çürümə riski var". Qeyd edilir ki, Cəlilabad kartofu daha çox Rusiya Federasiyasına ixrac olunur. Hazırda isə Rusiyanın müxtəlif vilayətlərində də kartof yığımının başlaması Cəlilabadda istehsal olunan kartofa tələbatı azaldıb. Mütəxəssislərin fikrincə, bölgədə emal müəssisələrinin yaradılması bu sahədəki mövcud çətinliklərin aradan qaldırılmasına kömək edə bilər.



*"Halbuki, sahədə qalan kartof toplanıb bazara gətirilsə, qiymət avtomatik aşağı düşəcək"*

**İqtisadçı Fuad İbrahimov isə bildirdi ki, problemin əsas səbəbləri fermerlərin bazara girişinin önünün kəsilməsi və kommunikasiya-inteqrasiyanın mövcud olmamasıdır:** - Kənd Təsərrüfatı Nazirliyi çəkilişlər aparır, göydən, yerdən ki, baxın, bu qədər məhsul əkilib, məhsul boldur, fermerlərə bu qədər kredit verilib və sair. KTN-in fəaliyyəti "əkildi, biçildi"dən ibarətdir. Bundan sonrakı vacib proseslər bəs necə olsun? Məhsulun daşınması, satışa çıxarılması mərhələsində İqtisadi İnkişaf Nazirliyi işə başlamalıdır. Amma başlamır. Ən azından bu görünmür. Becərilmiş, yetişdirilmiş məhsul iqtisadi dövriyyəyə cəlb olunmalıdır. Amma cəlb olunmur. Nəticədə məhsul fermerin əlində qalır. Fermerin çəkdiyi əziyyət, çəkdiyi xərc batır. Hazırda marketlərdə kartofun qiyməti kəllə-çarxa qalxıb. Kartofun kiloqramı 1 manat 35 qəpiyə satılır. Halbuki, sahədə qalan kartof toplanıb bazara gətirilsə, qiymət avtomatik aşağı düşəcək. Monopoliya da buna imkan vermir. Məlum şəbəkə yerli məhsulun bazar, marketlərə axın etməsinə yol vermir. Nəticə də göz qabağındadır.

**F.İbrahimov qeyd etdi ki, bir sıra məhsullar var ki, onlar ikitəyinatlı becərilir.** Məsələn, kartof yerli bazarla yanaşı, idxal - xarici bazarlar üçün nəzərdə tutularaq becərilir. Buna ikitəyinatlı becərmə deyirlər. İdxal üçün nəzərdə tutulan məhsul daha keyfiyyətli olur, xüsusi üsullarla becərilir ki, idxal zamanı tez xarab olmasın, görünüşü də satış üçün cəlbedici olsun. Buna "tovarnı vid" deyirlər. Bu cür məhsullara daxili bazarda tələbat çox azdır. Daxili bazarda nisbətən ucuz, qiyməti alıcıya sərf edən məhsula tələbat daha çoxdur. Sıravi vətəndaş kiloqramı 1 manata olan kartofu qoyub, deyək ki, ondan bahalısını, 1.50- 2 manata olan kartof almaz. Amma Rusiya bazarlarında kartofun da, digər tərəvəzlərin, meyvələrin də qiyməti fərqlidir - bahadır. Və bu meyvə-tərəvəzin keyfiyyəti, xarici görünüşü də qiymətinə uyğundur. Fermerlərin becərdiyi məhsulu sata bilməməsinin bir səbəbi də həmin məhsulun idxal üçün nəzərdə tutulmasıdır. Lakin idxal mümkün olmadığından fermerlər çətin vəziyyətə düşüb.

**F.İbrahimov bildirdi ki, bu cür vəziyyətlərə "fors-major hal" deyilir:**

- Fermer məhsul becərəndə hansı dövlətin müharibə edəcəyini, regionda siyasi vəziyyətin necə olacağını, əlbəttə bilmir. Fermerin işi məhsul becərməkdir. Amma dövlət qurumları fors-major halların baş verə biləcəyini proqnozlaşdırmalı və hər situasiya üçün alternativ proqram işləyib hazırlamalıdırlar. Kim bilirdi ki, Rusiya Ukraynaya hərbi müdaxilə edəcək və taxıl problemi yaranacaq, yaxud meyvə-tərəvəzin xarici bazarı bağlanacaq. Bunu siyasətçilər, analitiklər porqnozlaşdıra bilər, əlaqədar qurumlar da baş verə biləcək gözlənilməz hallar üçün çıxış yolu düşünməlidirlər. Təəssüf ki, bizdə belə bir praktika yoxdur. "Yağmadı yağış, bitmədi qamış", məsələni kimsə yadına salmır. Fermer ondan asılı olmayan səbəblərdən zərərə düşürsə, dövlət dəymiş ziyanı qarşılaya bilər. Məhsul nisbətən ucuz qiymətə daxili bazara çıxarılır, fermerə kompensasiya ödənilir, ya da başqa, alternativ xarici bazar tapılır. Rusiya olmasın, Avropa ölkələri olsun. Keyfiyyətli məhsulu almaq istəyən hər zaman tapılır. Amma təəssüf ki, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, eləcə də bütövlükdə Nazirlər Kabineti bu işlərlə məşğul deyil. Nazirlər Kabineti yaranmış vəziyyətdən çıxış yolu kimi müəyyən qərar verə bilər. Lakin bunu görmürük. Ona görə də bazarda qiymətlər baha, məhsul isə keyfiyyətsizdir.

Məlahət Rzayeva

# Sosial müavinətlər haqqında qanun"a əsaslı dəyişikliklər olub

## Sahib Məmmədov: “Sözügedən qanunda 11 maddə üzrə 50-dək əlavə və dəyişiklik edilib”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

### İctimai və dövlət maraqlarının müdafiəsi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ”Sosial müavinətlər haqqında” qanuna dəyişiklikləri təsdiqləyib. Dəyişikliyə əsasən bundan sonra ölkədə şəxsə düşən pensiyanın məbləği onun aldığı, yaxud almalı olduğu sosial müavinətin məbləğindən az olacağı təqdirdə ona müavinət təyin olunacaq. Prezidentin məlum qanuna dəyişiklikləri imzalaması, dövlət siyasətinin sosial yönümlü olduğunun əyani sübutudur.**

Cənab Prezident zatən hər zaman çıxışlarında vətəndaşların sosial şəraitinin yaxşılaşmasının, rufah halının yüksəlməsinin prioritet olduğunu, hər hansı layihə təxirə salınsa da, sosial proqramların ləngidilməyəcəyini, lazım gələrsə, dövlət büdcəsində sosial proqramlar üçün nəzərdə tutulan vəsaitin artırılacağını söyləyir. Azərbaycan vətəndaşları da hər dəfə cənab Prezidentin sözününü üstündə dayandığını, sosial layihələrin davamlı şəkildə icra edildiyini, dövlət büdcəsindən də məhz sosial layihələrə daha çox vəsait ayrıldığının şahidi olurlar. Bu, ölkəmizdə vətəndaş-dövlət həmrəyliyinin, dövlətin vətəndaş rifahına üstünlük verməsinin təzahürüdür. Son bir neçə günə nəzər salsaq istər əmək pensiyaları, müavinətlər, əlilliyə görə müavinətlər, istərsə də ümumilikdə Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin artırılması istiqamətində əməli addımlar atılıb. Azərbaycan Respublikasının Milli Məclisi vətəndaşların sosial vəziyyətinin yaxşılaşmasına yönəlmiş qanunlara dəyişiklik və əlavələri təsdiqləyib. Məsələn, ”Sosial müavinətlər haqqında” Qanunun 7-ci maddəsində dövlət qulluqçularına ömürlük müavinət, yaşa görə müavinət, əlilliyə görə müavinət, ailə başçısını itirməyə görə müavinət, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş bəzi kateqoriya şəxslərə kommunal, nəqliyyat və digər xidmətlərə görə müavinətin təyinatı şərti kimi şəxsin əmək pensiyası hüququnun olmaması göstərilir. Ailə başçısının kifayət qədər sosial sığorta stajının olması səbəbindən ailə üzvünün ailə başçısını itirməyə görə pensiya hüququ yarandığı halda həmin müavinətin ödənişi dayandırılır. Lakin sözügedən əmək pensiyasının ailə üzvünə düşən hissəsi ona təyin edilmiş, yaxud təyin ediləcək sosial müavinətin məbləğindən aşağı olduğu təqdirdə, onun maddi təminatının aşağı düşməsi ilə nəticələnir. Həmçinin əmək pensiyası təyinatının məqsədinin şəxsin, yaxud ailənin itirilmiş gəlirlərinin kompensasiyası olduğunu nəzərə alaraq, bu halda nəinki ailənin itirilmiş gəlirləri kompensasiya olunur, əksinə, azalırdı. Yeni dəyişikliklə şəxsə düşən pensiyanın məbləği onun aldığı, yaxud almalı olduğu sosial müavinətin məbləğindən az olacağı təqdirdə ona müavinət təyin olunacaq.

**”Əmək pensiyaları haqqında” Qanuna dəyişiklikləri şərh edən Əmək Hüquqlarının Müdafiəsi Liqasının sədri Sahib Məmmədov qeyd etdi ki, sözügedən qanunda 11 maddə üzrə 50-dək əlavə və dəyişiklik edilib:**

- Bunlardan biri - zərərli və ağır işlərdə çalışan şəxslərin pensiyaya çıxmasında yeni güzəştlərdir. Həmin şəxslər üçün nəzərdə tutulmuş pensiya yaşına çatdıqda əvvəl 12 il 6 ayı zərərli işlərlə bağlı olan 25 il staj və fərdi hesabda 48960 manat pensiya kapitalı tələb olunurdu. Bundan sonra isə 12 il 6 ayı zərərli işlərlə bağlı olan 25 il staj, yaxud 12 il 6 ay zərərli işlərlə bağlı staj və fərdi hesabda 34560 manat pensiya kapitalı tələb olunacaq. Bu, kişilər üçün edilən dəyişiklikdir. Qadınlar isə əvvəl 10 ili zərərli işlərlə bağlı olan 20 il staj və fərdi hesabda 56160 manat pensiya kapitalı tələb olunurdusa, bundan sonra fərdi hesabda 34560 manat pensiya kapitalı tələb olunacaq. Göründüyü kimi, həmin şəxslərdən pensiyaya çıxmaq üçün tələb olunan pensiya kapitalı 30-38,5 faiz azaldılır. Bu dəyişiklik hər il orta hesabla əlavə 1000 nəfərin pensiya hüququnun yaranmasına imkan verəcək. Digər tərəfdən, güzəştli şərtlərlə pensiya təyin edilən şəxslər üçün gözlənilən pensiya ödənişi müddəti də kişilər üzrə 204-dən, qadınlar üzrə 234-dən 144-ə endirilir. Bu da onlara hesablanan pensiya məbləğinin orta olaraq 42-62 faiz artması ilə nəticələnəcək.

Qeyd edək ki, yeni dəyişiklik ailə başçısını itirmiş ailələrin sosial müdafiəsinin gücləndirilməsində yeni addımların atılmasına da imkan verir:

- Ailə başçısını itirməyə görə pensiyanın bir ailə üzvünə düşən hissəsi onun hüququ yaranan müavinətin məbləğindən az olduqda, ona ailə başçısını itirməyə görə pensiya əvəzinə həmin müavinəti almaq hüququ verilir. Bu zaman, eləcə də pensiya payını almadığı digər hallarda, onun pensiya payı bərabər şəkildə bölünərək digər ailə üzvlərinin pensiyasına əlavə olunacaq. Vəfat edən şəxsin pensiya məbləği onun ailə üzvlərinə sonradan ailə başçısını itirməyə görə pensiya kimi təyin ediləndə ötən illərə uyğun şəkildə indeksasiya edilərək artırılacaq. Məsələn, pensiyası 285 manat olan və 2019-cu ildə vəfat etmiş ailə başçısının həyat yoldaşına 2022-ci ildə ailə başçısını itirməyə görə pensiya təyin edildikdə həmin şəxsə 285 manat deyil, 382,8 manat pensiya təyin ediləcək. Vəfat etmiş pensiyaçının pensiyasının məbləğinin də o, pensiyaya çıxdıqdan sonra vəfat edənədək topladığı pensiya kapitalı nəzərə alınmaqla ailə üzvünə müvafiq pensiya təyinatı zamanı yenidən hesablanması imkanı yaradılır.



”Əmək pensiyaları haqqında” Qanuna digər bir yeni dəyişiklik isə erkən pensiya hüququ olan çoxuşaqlı (5 və daha çox uşağı olan) qadınlara, sağlamlıq imkanları məhdud uşağı olan analara və atalara, uşaqlarını təkbaşına böyüdən atalara və qəyyumlara münasibətdə humanist, güzəştli yanaşmanı nəzərdə tutur. Bu kateqoriyadan olan, erkən pensiya hüququ yaranan şəxslərə E-sistem üzərindən, müraciət olunmadan, sənəd təqdim edilmədən, proaktiv qaydada pensiya təyinatı aparılacaq. Onlardan fərdi hesabında (01.01.2006-01.07.2018-ci il tarixləri üzrə) hər hansı məbləğdə pensiya kapitalı olan şəxslərə 25 il sosial sığorta stajı hədiyyə edilməklə avtomatik pensiya hüququ şamil olunacaq. Bu dəyişiklik hər il orta hesabla əlavə 960 nəfərin pensiya hüququnun yaranmasına da imkan verəcək.

Həmçinin qeyd edək ki, Prezident İlham Əliyev ”Onkoloji yardım haqqında” və ”Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında” qanunlarında dəyişiklik edilməsi barədə də qanunu imzalayıb. Bununla da Azərbaycanda onkoloji və skleroz xəstələri sosial müavinət və ya əmək pensiyası almaq hüququ əldə edir. Bütün bu dəyişikliklər sıravi vətəndaşlarla yanaşı, sağlamlıq imkanları məhdud, müəyyən xəstəliyi olan vətəndaşlara dövlət qayğısının gücləndirildiyini, maddi asılılığının aradan qaldırıldığını sübut edir.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Şəkər tozu qıtlığı yaranıb

## Dünyadakı qiymət artımı şəkər tozu və digər məhsulları daha da bahalaşdıracaq

**Son vaxtlar mağazalarda şəkər tozu qıtlığı yaşanır.**

Artıq yay mövsümüdür, mürəbbələr hazırlamağın əsl vaxtıdır. Lakin məhsulu marketlərdə tapmaq olmur. İnsanlar 2 kiloqram şəkər tozunu əldə etmək üçün bir neçə marketə daxil olmaq məcburiyyətində qalır. Üstəlik, baha qiymətə. Bəzi satıcılar da bildirirlər ki, şəkər tozunun qəhətə çəkilməsi növbəti bahalaşma dalğası ilə bağlıdır.

**Qıtlıq və bahalaşmanın real səbəbləri ilə bağlı ”Şərq”ə danışan iqtisadçı-alim Nazim Bəydəmirli bildirib ki, dünyada istehlak mallarında qiymət artımı var:** ”Eyni zamanda şəkər tozu dünya bazarına, o cümlədən bizim coğrafiyadan olan ölkələrə daha çox Ukraynadan gəlirdi. Həmçinin Rusiyada ixrac olunan məhsullarda bildiyimiz kimi, süni qiymət artımı mövcuddur. Orada valyuta bazarı olmadığı halda Mərkəzi Bank dolların kursunu aşağı göstərmək üçün siyasi qərar qəbul edib. Özlərinə sərf edən kursu elan edirlər. Bu da təbii ki, həmin məhsulları rublla alan sahibkarlara baha başa gəlir. Həm də logistika problemləri var. Rusiya-Ukrayna savaşına görə regionda daşımaların xərci də artır. Nəticədə malın maya dəyəri də yüksəlir. Məlum olduğu kimi, Azərbaycanda şəkər tozu istehsal edən yeganə müəssisə olan İmişli şəkər zavodu da xarici ölkələrdən xammal alır. Yerli məhsullar az istehsal olunur. Əslində problemin kökündə dayanan inhisarçılıqdır. Ölkədaxili istehsal, məmur sahibkarlığı, həmçinin gömrük orqanlarında süni qiymət artımı siyasəti aparılır. Müxtəlif sahibkarlar Azərbaycana məhsul gətirməkdən imtina edirlər. Gömrük orqanlarının ”öz qaydaları” ilə işləməsi, bəyannamə qiymətini artırması həm maya dəyərini şişirdir, həm də rəqabət mühitini korlayır. Dünyadakı qiymət artımı Azərbaycanda bu gün şəkər tozu və digər məhsulları daha da bahalaşdıracaq. Kordinal olaraq, hökumət gömrük orqanları barədə bir qərar qəbul etməlidir. Təklif edirəm ki, Gömrük Komitəsi ləğv edilsin. Vergilər Xidməti ilə birgə fəaliyyət göstərsin ki, şəffaflıq olsun. Rəqabətli mühit təmin olunsa, əlbəttə ki, bütün məhsulların qiyməti optimallaşacaq”.

**Sücayət Mehti**

# "Azərbaycanda musiqiləri dinlədikcə fərqinə vardım"

## Lutfullah Parıltı: “Bizim burada bir çox müğənnilərin ifa etdiyi mahnıların çoxu oradan gəlib”

**Əvvəllər hər dəfə Sultanəhməd meydanı tərəfə gedəndə, binanın üstündə ”Türk Ədəbiyyatı Vəqfi” adını oxuyanda mütləq bura gələcəm deyirdim, amma bəzən gec olduğu üçün məkan qapalı olurdu, bəzən də vəqfin tətil dövrünə təsadüf edirdi. Nəhayət, 2018-ci ilin yay günü idi, arzuladığım Vəqfə getdim, foyedə sakitlik idi, sən demə, yay olanda burada tədbirlər keçirilmir, amma çalışanlar gəlir, onlar da hərəsi öz otağında.**

Mən də foyedəki şəkillərə baxdım, Türk Dünyasının böyük yazarlarının portretləri və ortada Vəqfin qurucu başqanı Əhməd Qabaqlı hocanın böyük portreti asılmışdı. Otağın birinə yaxınlaşdım, qapını çalıb, içəri girdim, salam verdim, özümü təqdim etdim. Azərbaycandan olduğumu bilən kimi adamın çöhrəsində xoş bir təbəssüm yarandı, ”xoş gəlmisiniz, buyurun əyləşin” dedi. Vəqfin Maliyyə və İdari İşlər müdürü Lutfullah Parıltı ilə başladıq maraqlı söhbətə. O gün, bu gün bu Vəqf mənim üçün bir ata ocağına çevrildi, Lutfullah bəy isə Türk yurdu olsa da başqa bir ölkədə yaşayan, mənim üçün diqqətini və dəstəyini əsirgəməyən böyük ”Abi” oldu. Zaman keçdikcə onu daha yaxşı tanımağa başladım, ümumi mövzumuz əsasən Türklük ülküsü, Vətən, Millət sevdası və Allah eşqi olur. Sıxıntılarda üzülməməyi, sadəcə Allaha dua edib, ondan istəməyi və eyni zamanda çaba göstərməyi, birinə yaxşılıq etdiyin zaman, səni vəsilə qıldığı üçün Allaha şükr etməyi kitablardan oxusam da, Hacı Lutfullah abi təlqin etdi mənə. Başı çilələr çəkən, əqidəsi uğrunda yorulmadan mübarizə aparan bir dava adamıdır o, bir milliyyətçidir. Müsahibəmizdə həyat yolundan danışdıq.

**- Lutfullah bəy, bildiyim qədərilə İstanbul Texniki Universitetinin elektrik və elektronik mühəndisi bölümündən məzunsunuz, Ədəbiyyat Vəqfində maliyyə işlərinə baxırsız, bəs ədəbiyyat sizin üçün nədir?**

- 1973-cü ildə universiteti qazanıb, qardaşımla Çankırıdan İstanbula gəldik, əslən rizəliyik, sonradan Çankırıya yerləşmişdik. O, makina mühəndisliyi, mən elektrik mühəndilsiyi, böyük bacım ədəbiyyat, kiçik bacım isə kimya bölümü oxuyacaqdıq, çünkü hələ kiçik yaşlarımızdan hədəflərimiz vardı və hədəflərimizi gerçəkləşdirdik. Həmin dönəmlərdə İstanbuldakı Qübbəaltı əhli ilə tanışdım, daha doğrusu, tanıdıqlarım da vardı orada, onların həftənin iki günü - çərşənbə axşamı və cümə günləri konfransları olurdu. Qübbəaltı Vəqfi ”Fətih Cəmiyyəti”nin nəzdində yaradılmışdı və ədəbiyyat camiəsindən, siyasətdən, bir sözlə, sahəsinin uzmanları olanlar gəlib müxtəlif mövzularda konfranslar verirdilər. Məncə, hansı ixtisasa yiyələnməsindən asılı olmayaraq, hər kəs türk dili və ədəbiyyatını öyrənməlidir, bu çox önəmlidir, biz də kitab oxumağı sevən insanlarıq, o zamanlar televiziya və radio məhdud olduğu üçün mütəmadi konfranslara gəlirdik və burada böyük ədəbiyyat ustadlarından Mehmet Kaplan, Faruk Akün, Cemil Meriç, Nəcməddin Hacıeminoğlu, İbrahim Kafesoğlu, indiki gənc nəslin xəyalında yaşayanları birə-bir gördük və konfranslarını canlı dinləmə fürsətimiz oldu. Əhməd Qabaqlını da orada tanıdım, əslində biz Anadoludan gələn insanlar olaraq o zaman çəkingən davranırdıq, İstanbul kimi böyük şəhərə alışmamışdıq, birisinə nəsə soruşmağa belə utanırdıq, indiki gənclər kimi rahat deyildik. Həmin Vəqfdə Əhməd Qabaqlı və digərləri çəkingən tələbə görəndə o dəqiqə maraqlanırdı, ”harada oxuyursan, haradan gəldin” və sair suallar verərək bizimlə söhbət edirdilər, biz də özümüzü çox şanslı tələbə hiss edirdik, belə böyük insanlarla ünsiyyət qurduğumuz üçün xoşbəxt idik. Mən o zaman o kişilərdən elə gördüyüm üçün bu gün eyni davranışı Ədəbiyyat Vəqfində sərgiləyirəm, buraya gələnləri gülər üzlə qarşılayıram, onlarla maraqlanıram və gedəndə də qapıya qədər yola salıram, çünki biz belə gördük, Qübbəaltı Vəqfinə rəhmətlik Turan Yazqan, Əhməd Qabaqlı, Mehmet Kaplan və yaxud bir başqası gəldiyində biz onların paltosunu alıb asırdıq, gedəndə qapıya qədər yola salırdıq, gərəkirsə evlərinə qədər aparırdıq və bunu özümüzə xidmət və şərəf sayırdıq, çünkü onlar çox kübar, alicənab, mütəvazi kişilərdi, əslində bunlar gözəl xatirələrdir.



Sonralar böyük bacım Qübbəaltı Vəqfinin müdiri də oldu, daha sonra Qübbəaltı Akademiyası quruldu və qurucuların arasında Əhməd Qabaqlı da var idi. O zaman Samiha Ayverdi, Ekrem Hakkı Ayverdi, İlhan Ayverdi və Əhməd Qabaqlı bunlar dördlü qrup kimi hər zaman bərabər idilər, amma ətrafında bir çox başqa aydın insanlar da vardı və əsasən ”Fətih Cəmiyyəti”nin başqanı Əkrəm əminin evində toplanırdılar, biz gənclər də onlara xidmət edirdik və bundan şərəf duyurduq. Onlar çox cəsarətli kişilər idi, o zaman 1980 çevrilişi oldu bilirsiniz, amma onlar çəkinmədən çevriliş edənləri öz məqalələrində tənqid edirdilər. Samiha ana, biz ona ana deyərdik, Qübbəaltı Vəqfinin başqanı idi, həmin yazıları qəzet səhifələrindən kəsib toplayırdı və biz gələndə verirdi ki, oxuyun bu yazıları, məlumatlı olmağımızı istəyirdi. Mənim ədəbiyyat sevgim də bu ortamda olduğum zamandan başladı.

**- Ədəbiyyatda ən çox şeiri sevirsiz, yoxsa nəsr əsərlərini?**

-Şeir oxumağı sevmirəm, amma dinləməyi sevirəm, o da gözəl şeir deyəni, intonasiya ilə, məsələn, rəhmətlik Sərvət Qabaqlı çox gözəl şeir deyirdi, onu dinlədiyim zaman şeiri daha çox sevirdim.

- Bildiyim qədərilə siz həm də Sərvət Qabaqlı ilə qohumsunuz.

- Bəli, 2011-ci ildə böyük qardaşımın qızı ilə Sərvət bəyin oğlu evləndi, mən qardaşımla eyni zamanda bacanağam, xanımlarımız bacıdır. Qardaşım sosial həyatla çox da maraqlanmırdı, ona görə də əksər zaman Sərvət bəyin yanında mən olurdum. Sərvət bəylə bərabər Vəqfləri ziyarət edirdik, müxtəlif tədbirlərə qatılırdıq, sonra 2012-ci ildə Azərbaycana da bərabər getdik. Bir məqamı qeyd etmək istəyirəm, Azərbaycanda bizim Qoşqar Qarayev adlı bir müştərimiz vardı, 90-cı illərdə İstanbula gələndə tanış olmuşduq, nəşriyyat işi ilə məşğul olurdu, o vaxt rəhmətlik Heydər Əliyev haqqında yazılan kitabları gətirirdi, biz burada çap edirdik, onu da deyim ki, xətalı olmasın deyə bu kitabların nəşrində xüsusi diqqət və həssaslıq göstərirdik. Qoşqar bəy uca boylu, cüssəli və çox nəşəli bir adam idi, amma danışıqlarını anlamırdım, çünki rusca danışırdı, hətta bu durumdan çox narahat olurdum. 2012-ci ildə Sərvət bəylə Azərbaycana gedəndə isə gördüm ki, insanların danışığında xeyli irəliləyiş var, daha sonra 2 dəfə də getdim, onda isə özümü Türkiyədəki kimi hiss edirdim. Yadıma düşmüşkən, Azərbaycanda olanda müsiqilərini dinlədikcə bir şeyin daha fərqinə vardım, bizim burada bir çox müğənnilərin ifa etdiyi mahnıların çoxu oradan gəlib.

**- Bəli, amma ifa etdikləri mahnının sözlərinə çox vaxt anonim yazırlar.**

- Təəssüf ki...

**- Azərbaycanda haraları gəzdiniz?**

- İlk getdiyimiz zaman mərhum şair Almaz İldırımın əqrəbalarını ziyarət etdik, sonra nəqliyyat şirkətinin sahibi, iş adamı dostumuz vardı Şahid Həbibulla (artıq rəhmətə gedib) onunla görüşdük, bizi Bakının Qala kəndindəki ”Qala Arxeoloji Etnoqrafik Muzey Kompleks”inə apardı, orada vaxtilə Nobelin Bakıda mindiyi fayton sərgilənirdi, hətta mənə dedilər ki, Nobelin nəticələri bu maşını külli miqdarda pul müqabilində almaq istəyiblər, amma Şahid bəygil satmayıb. O adamın bir də samovar müzeyi vardı, o da çox maraqlı idi, sağ olsunlar, bütün Bakını gəzdirdilər. Azərbaycanda ikən Şəhidlər Xiyabanını, Fəxri Xiyabanı, H.Cavidin ev muzeyini, Xızı rayonunda C.Cabbarlının ev muzeyini ziyarət etdik. Çox şükür, Azərbaycan əsgərinin şücaətilə indi Qarabağ da işğaldan azad olub, inşallah mədəniyyət beşiyi Şuşanı ziyarət etmək istəyirəm.

**- Lutfullah bəy, əmək fəaliyyətinə haradan başlamısız?**

- Mən 1980-ci ildə məzun oldum, bir neçə ay sonra da ilk Ədəbiyyat Vəqfinin olduğu yaşılay binası ilə eyni küçənin çarpaz küncündə yerləşən, bütün qəzetlərin qurulmasına hər cür texniki dəstək verən ”Metro mümessilik” adlı bir firmada işə girdim. O vaxt ”Tərcüman” qəzeti bizə yaxın idi, sonra Topqapıya daşındı, o prosesi də biz gerçəkləşdirdik, hətta ”Tərcüman”da çalışan texniki personala dərs də keçirdim. Mən sonra həmin şirkətin əsas müdiri oldum, amma 1992-ci ildə Samiha anamızın adlandırdığı ”Best” - bərəkət elektronik anlamına gələn öz şirkətimizi qurduq və bu da qısa zaman içində dünya miqyasında tanınan bir şirkət oldu və dünyanın 21 ölkəsi ilə əməkdaşlıq etdik. Şirkət olaraq Türkiyənin bir neçə tanınmış qəzetini qurduq - ”Türkiyə”, ”Zaman”, ”Bursa olay” və sair.

**- Qurduq deyərkən, texniki təchizatı nəzərdə tutursuz yəqin ki.**

- Bəli, qəzetin bütün avadanlıqlarını biz quraşdırdıq və çalışdığı müddətcə qəzet çap olunana qədər texniki xidmət göstərdik.

- İndi artıq təqaüdə çıxmışam və böyük kişilərin mirası olan Türk Ədəbiyyatı Vəqfində ədəbiyyata xidmət edirəm. Burası Türk Dünyasını birləşdirən əsas mərkəzlərdən biridir, bu mənada Azərbaycanla bağlı da çox çalışmalarımız var, xüsusilə pandemiya dönəmində bir çox tələbənin problemlərini çözməyə çalışdıq. Azərbaycana dönə bilməyənləri otellərə yerləşdirdik, gedən bir çoxunun virus testini etdirdik, bəzilərinin də yükünü Azərbaycana göndərdik.

**Yaqut Misirxanlı**
**İstanbul, Türk Ədəbiyyatı Vəqfi**

# Həyət evlərində yanğın təhlükəsi daha çoxdur

## Evin əsas elektrik xətləri keyfiyyətli naqillərdən istifadə edilərək çəkilməlidir



**Bakının Sabunçu rayonunda dəhşətli yanğın olub. Hadisə Kürdəxanı qəsəbəsində yeni yaşayış massivində yerləşən fərdi evdə qeydə alınıb. Ümumi sahəsi 120 m? olan birmərtəbəli kürsülü evin dəhlizinin yanar konstruksiyaları və dam örtüyünün taxta atmaları 20 m? sahədə, mətbəxinin tavanı 8 m? sahədə yanıb.**

Fövqəladə Hallar Nazirliyindən verilən məlumata görə,

yanğın bölmələri hadisə yerinə çatana kimi 7 nəfər (onlardan 4-ü uşaqdır) xəstəxanaya aparılıb. Uşaqlardan ikisi xəstəxanada vəfat edib.

Evin qalan hissəsi yanğından mühafizə olunub. Yanğın yanğından mühafizə bölmələri tərəfindən söndürülüb. Hadisə ilə əlaqədar müvafiq qurumlar tərəfindən təhqiqat aparılır.

**Fərdi həyət evlərində yanğınların başvermə səbəbləri haqqında "Şərq"ə açıqlama verən təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyevin sözlərinə görə, həyət evlərində təhlükəsizlik qaydalarına əvvəlcə tikinti-təmir zamanı diqqət yetirilməlidir:** "Fərdi yaşayış evlərində, həyət evlərində və binalarda yaşayan sakinlər tərəfindən riayət olunmalı olan yanğın təhlükəsizlik qaydaları vardır ki, onlara əməl edilməlidir. Adətən insanlar yaşadıqları evin ilk sahibi deyillər, bu da öz növbəsində daha diqqətli olmaq tələb edir. Yəni biz bilmirik ki, bizdən qabaq burda yaşayan şəxs evi hansı keyfiyyətdə təmir edib. Təmir vaxtı keyfiyyətsiz materiallardan istifadə edilməməlidir. Evin ilk sahibi şəxs özüdürsə, evin təmirində yanğın təhlükəsizliyinə dair normativləri nəzərə almalıdır. Yəni təmir vaxtı keyfiyyətsiz mal, materiallardan istifadə etməməlidir. Evin əsas elektrik xətlərini keyfiyyətli naqillərdən istifadə edərək çəkməlidir. Daha sonra otaqların və mətbəxin təyinatına uyğun normalar nəzərə alınmalıdır.

Nəzərə almaq lazımdır ki, texnologiyanın inkişafının müsbət tərəfləri olduğu kimi, insanların bundan düzgün istifadə etmədikdə, mənfi tərəfləri də vardır. Baş verən yanğın hadisələrinin statistikasına baxsaq elektrik qısaqapanmasından baş verən yanğın hadisələri çoxluq təşkil edir. Ona görə elektriklə bağlı olan hər şeyi ciddi nəzarətdə saxlamaq lazımdır. Birinci növbədə elektrik xətlərini yükləmək olmaz. Evdə eyni anda həm televizor işləyir, həm kondisioner, həm paltaryuyan, həm kompüter, həm yemək hazırlamaq üçün elektrik qızdırıcı və s. Bu da öz növbəsində elektrik xətlərinin yüklənməsi deməkdir ki, yüklənmə nəticəsində xətlərdə qızma olar, qısaqapanma yaranar və yanğın təhlükəsi yarana bilər. Ona görə eyni anda bu qədər elektrik ilə çalışan avadanlıqları işlətmək məsləhət deyil. Yəni tam ciddi yanğın təhlükəsizliyi qaydalarına riayət edilməklə bədbəxt hadisələrdən qorunmaq olar".

**Şəymən**



**Qurban bayramı ilə bağlı satışa çıxarılacaq heyvanların qiymətinin bayram ərəfəsində bahalaşacağı, sonra isə ucuzlaşacağı gözlənilir. Tovuz bazarındakı satıcılar "Xəzər Xəbər"ə bildiriblər ki, yemin qiymətindəki artım satışa təsir edib.**

Mingəçevir bazarında isə qəssablar qeyd ediblər ki, əvvəlki aylarla müqayisədə qiymətlər 1-3 manat bahalaşıb.

# Ticarətin dini yoxdur

## Sahibkarlar qurbanlıq heyvanların qiymətini özləri bahalaşdırır

Bu da qurbanlıq heyvanların satış qiymətində özünü hiss etdirəcək. Satıcılar bildiriblər ki, 14-15 kiloqramlıq quzuların qiyməti 190-200 manatdır. Qeyd ediblər ki, quzu ətinin bir kiloqramının qiyməti 13 manat, erkək ətinin qiyməti isə 12 manatdır. Bayram ərəfəsində isə qiymətlərin bir az artacağı istisna edilmir. Bununla yanaşı, Kənd Təsərrüfatı Nazirliyi tərəfindən bu il ənənəvi qaydada "Kənddən şəhərə" qurban yarmarkalarının keçirilməsi planlaşdırılır. Qida Təhlükəsizliyi Agentliyindən isə bildirilib ki, heyvan kəsim məntəqələrinə xüsusi nəzarət ediləcək. Məntəqələrdə baytarlıq nəzarətindən keçmiş və sanitar qaydalara uyğun kəsilmiş heyvanların satışı həyata keçiriləcək.

Hər il bayram günlərində rastlaşdığımız bu qiymət artımı əhali arasında narahatlıq doğurur.

**Qiymət artımının ticarət fəndi olduğunu deyən iqtisadçı-ekspert Fuad ibrahimov "Şərq"ə bildirib ki, bu halın dünyada gedən qiymət artımı ilə əlaqəsi yoxdur:** "Ərzaq məhsullarının qiyməti dinamik şəkildə qalxır. Bu gün quzu ətinin bayramqabağı artmasını dolayı yolla da olsa, böhranın boynuna atacaqlar. Lakin bu doğru deyil. Məhz Qurban bayramında qurbanlıq heyvanlara tələbat artır və bu da qiymət artımına səbəb olur. Bütün sahibkarlar istəyirlər ki, daha çox mənfəət əldə etsinlər. Çox təəssüf ki, müqəddəs bayramın olması da bu hallara təsir göstərmir. Ticarətin dini yoxdur, hər bayram bu hallar müşahidə olunur. İndi də elə olacaq".

**Nihat Müzəffər**



# "Antireklam özü də reklamdır"

## BDU-nun müəllimi jurnalistin statusuna fərqli münasibət açıqladı

**Jurnalist Ağa Cəfərli feysbuk hesabında televiziyalarla bağlı tənqidi paylaşım edib. Həmkarımız yazıb: "Bayaq bir video qarşıma çıxıb. Televiziyalardan birində guya, zarafat edirlər: "Zaur müğənnini nəzərdə tutaraq, deyir ki, bunu kim alıbsa, vurub.**

Meyxanaçı da fikir bildirir ki, alan vurar da. O biri də söyləyir ki, heç nə, zəmanə pisdir, vuran vuranadır. Belə absurd, xalqın ruhunu oxşamayan söhbətlər. Bu cür "zarafatlar"ın efirə yol tapdığını bilmirdim, vallah, bir az olar öyrənmişəm".

**BDU-nun Jurnalistika fakültəsinin müəllimi Nəmənd Rüstəmov "Şərq"ə açıqlamasında bildirib ki, belə dialoqlar ilk dəfə deyil:** "Üstüörtülü, vulqar zarafatlara telekanallarda çox rast gəlinir. Bu məsələlərin yenidən gündəmə gətirilməsi, işıqlandırılması yaxşı hal deyil. Proses canlı verilişdə baş verir, aparıcının kimləsə zarafatı ola bilər.

Efir günün çox hissəsini şoumen kimi fəaliyyət göstərən şəxs üçün adiləşir, həyat tərzinə çevrilir. İnsandır, zarafat da etməlidir, deyib-gülməlidir də. Bir neçə ildən sonra birinin sözünü neqativ yönlü müzakirə etmək ona əlavə dividend gətirir. Marketinqdə belə bir qayda var: antireklam özü reklamdır. Sanki insanı tənqid edirsən, amma nəticədə ona maraq daha da artır.

Analoji durumların diskusiyasını optimal saymıram. Canlı efirdə fors-majorlar, sanki "ağızdan qaçan sözlər"ə şahidlik etmək mümkündür. Gündəmdə qalmaq üçün şou-biznesə meyilli camеə bu sayaq "pryom"lardan istifadə edirlər. Bununla bağlı Azərbaycan Respublikası Audiovizial Şura var.

Ötən günlərdə "Space" TV-nin efirində Elçin Əlibəylinin işlətdiyi sözə görə ciddi xəbərdarlıq olub. Təqdirəlayiqdir. Əgər bənzər hal varsa, araşdırılıb, cəzalandırılsın, cərimə tətbiq olunsun. Dövlətin məsul strukturu bu məsələləri diqqətdə saxlayır. Televiziya çağırılmamış qonaqdır. Bu cür söhbətlər gənclərimizə pis nümunədir".

**Sücayət Mehti**

# Günah sürücüdə deyil, sərnişin qadındadır

## "Az qala avtobusu evlərinin qapısına sürdürməyə çalışırlar"




**Avtobus sürücüsü ilə sərnişin arasında baş verən insidentlərlə mütəmadi qarşılaşırıq. Yenə sosial şəbəkələrdə sürücü ilə sərnişin arasında yaranan davanın görüntüləri yayılıb.**

Mübahisə zamanı bir-birinə nalayiq ifadələr işlətdikdən sonra tərəflər arasındakı mübahisə əlbəyaxa davaya çevrilib. Sonra qadın sərnişin sükan arxasındakı sürücüyə hücum edib. Sürücü isə əsəbiləşərək qadını itələyib.

Bu zaman qadın sərnişin müqavimətini itirərək avtobusun qapısından çölə yıxılıb. Nəticədə qadın sərnişin xəsarət alıb. Sumqayıt Şəhər İcra Hakimiyyətinin mətbuat katibi Eyvaz Qocayev "EdNews"a açıqlamasında insidentin şəhərdaxili avtobusda baş verdiyini söyləyib: "Hadisə 13 gün əvvəl, şəhərdaxili avtobusda yaşanıb. Artıq sürücünün polis tərəfindən ifadəsi alınıb və o, işdən azad edilib. Qadın sərnişin isə yüngül xəsarət alıb, o, ambulator müayinə edilərək evə buraxılıb. Hazırda sağlamlığı ilə bağlı heç bir problemi yoxdur".

**Sürücü-sərnişin münasibətlərini "Şərq"ə dəyərləndirən "Avtosfer.az" saytının baş redaktoru, nəqliyyat üzrə ekspert Elməddin Muradlının qənaətincə, insanlar tənbəlləşib:** "Belə hadisələr sürücülər yox, sərnişinlər tərəfindən yaşanır. Sürücüləri təhqir edir, döyürlər. Sərnişinlər dayanacaqdan kənar düşmək, minmək istəyirlər. Az qala avtobusu evlərinin qapısına sürdürməyə çalışırlar. Kadrlardan görünür ki, günah sərnişin qadındadır. Bir neçə dəfə sürücünün üzərinə hücum edir. Sonda sürücü onu itələyir.

Doğrudur, o qadındır, sürücü təmkinli davranmalı idi. Amma sürücü də gün ərzində sükan arxasında, gərgin iş rejimindədir. Onu da düşünmək lazımdır. Görüntülər bütün sərnişinlərə və sürücülərə dərs olmalıdır. Hər şey videoya yazılır. Konfliktə getmək lazım deyil.

Sərnişinlər dayanacaqda minib-düşməyi öyrənməlidir, sürücülər də dayanacaqdan kənar avtobusu saxlamamalıdır".

**Aygün Tahir**

# Son zamanlar dağınıq skleroz xəstəliyi çox yayılıb

## Belə insanların dövlət qayğısıyla əhatə olunması onlara əlavə yardımdır



**Onkoloji xəstələr və dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslər bundan sonra əmək pensiyası da ala biləcək.**

Bu barədə Prezident İlham Əliyevin imzaladığı "Onkoloji yardım haqqında" və "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" qanunlarında dəyişiklik edilməsi barədə qanunda qeyd edilir. Bu vaxta qədər mövcud olan "Onkoloji yardım haqqında" qanuna (9-cu maddə) əsasən, əlilliyi, o cümlədən sağlamlıq imkanlarının məhdudluğu müəyyən edilmiş və əmək pensiyası almaq hüququ olmayan onkoloji xəstələrin müvafiq qanunvericiliklə müəyyən edilmiş qaydada sosial müavinət almaq hüququ var idi. Yeni sənədə əsasən, əlilliyi, o cümlədən sağlamlıq imkanlarının məhdudluğu müəyyən edilmiş onkoloji xəstələrin sosial müavinət və ya əmək pensiyası almaq hüququ olacaq. İndiyədək qüvvədə olan "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" qanuna (9-cu maddə) görə də əlillik, o cümlədən sağlamlıq imkanlarının məhdudluğu müəyyən edilmiş və əmək pensiyası almaq hüququ olmayan dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərin sosial müavinət almaq hüququ var. Yeni sənədlə əlillik , o cümlədən sağlamlıq imkanlarının məhdudluğu müəyyən edilmiş dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərin sosial müavinət və ya əmək pensiyası almaq hüququ olacaq.

**Qanuna dəyişikliyi mütərəqqi, onkoloji xəstələr və dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə sosial yardım baxımından müsbət adlandıran Təcili Tibbi Yardım Stansiyasının həkimi, terapevt Şahvələd Məmmədov "Şərq"ə açıqlamasında yeni qanunun adıçəkilən xəstələrə böyük dəstək olacağını qeyd etdi:**

- Soruşa bilərsiniz ki, niyə məhz onkoloji xəstələr və dağınıq skleroz xəstələri, cavabı bu olacaq ki, bu xəstəliklər insanın əmək qabilyyətini itirməsinə görədir. Onkoloji xəstəliklərin mərhələləri, dərəcələri var. Elə ağırlıq dərəcəsi var ki, insanın əmək qabiiliyyətini itirməsinə gətirib çıxarır. Həmçinin dağınıq skleroz xəstəliyi də əmək qabiliyyətinin tamamilə itirilməsiylə nəticələnir. Həm də son zamanlar dağınıq skleroz xəstəliyi çox yayılıb. Elə insanlar var təkdir, tənha yaşayır. Köməksizdirlər. Bu cür xəstələrin dövlət qayğısıyla əhatə olunması onlara əlavə yardımdır, köməkdir. Əvvəllər belə idi ki, onkoloji xəstə müayinələrdən keçir, xəstəliyin dərəcəsinə uyğun olaraq ona müavinət təyin edilirdi. Amma yeni qanunla onkoloji və dağınıq skleroz xəstələrinə əmək pensiyası da təyin edilə biləcək. Bu, həmin şəxslərin maddi vəziyyətinin yaxşılaşmasına kömək edəcək. Ümumiyyətlə, biz həkimlər hər zaman bildiririk ki, onkoloji xəstəliklər, eləcə də bir sıra ağır xəstəliklərin müayinə və müalicəsi icbari tibbi sığorta zərfinə mütləq daxil edilməlidir. Çünki bu müayinə və müalicələr bəzən çox bahalı olur, hər kəsin bu məsrəfləri qarşılamağa maddi imkanı yetmir. Ümid edirik ki, çağırışlara müsbət reaksiya olacaq.

**Məlahət Rzayeva**

# Bir çox kişi ona aşiq olub

## "Səsimə görə məni toydan qaçırtmaq istəyirdilər"



**"Səsimlə bağlı böyük dərd yaşayırdım. Mənim dostlarım bunu bilirdilər. Gecələr yata bilmirdim, boğulurdum.**

Dəfələrlə durub paltar dəyişirdim, suyun içində olurdum. Səs tellərimdə, bronxlarımda problem var idi. Analiz götürdülər, əkdilər, yaxşı çıxdı. Amma dedilər ki, təcili əməliyyat olunmalıyam".

**Bu sözləri müğənni Mətanət Əsədova "Səhər mərkəzi" proqramında deyib. İfaçı bir müddət əvvəl keçirdiyi əməliyyatdan danışıb.**

M.Əsədova səsinə görə bir çox kişinin ona aşiq olduğunu söyləyib: "Səsimə görə məni toydan qaçırtmaq istəyirdilər. Bunun şahidi olan müğənni dostum var. Səsimə görə aşiq olan da, söz göndərən də olub. İndi peşmanam ki, müğənniyəm. Təqdimatdan çox şey asılıdır. Mən düzgün təqdim edilmədim. Rola girməyi bilmirəm. İndi rola girməsən səni qəbul etmirlər. Mən də bunu bacarmıram".

# Rəhim Rəhimli hiddətləndi

## "Sənin kimi yiyəsiz deyiləm, ağıllı ol"



**Müğənni-bəstəkar Rəhim Rəhimli "Ağıllı ol" adlı yeni mahnısını həmkarlarına aid etdiyini etiraf edib.**

Sənətçi bu haqda "Sözbaz" proqramına açıqlamasında danışıb. O bildirib ki, çox vaxt susur və ünvanına deyilənlərə cavab vermir:

"Çox zaman cavab vermirsən. Onda da düşünürlər ki, söz dedim təsiri oldu, tutdu, üzərinə daha da gedə bilərəm. Sadəcə bəzən birilərinə görə susursan, ailəni düşünürsən. Deyrisən mən sənin kimi yiyəsiz deyiləm, ailəm, qonşum var. Belə insanlara şillə olsun, ağıllı ol".

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1773



## Qəpik də xərcləmədilər

İki dost süni futbol meydançası düzəldiblər



**İndoneziyada iki dost süni futbol meydançası düzəldib. Həm də meşədən topladıqları təbii materiallardan. Bu barədə "ahaber.com" saytı xəbər verib.**

Məluamatda bildirilir ki, son zamanlar istedadlı şəxslərin sadə alətlərlə incəsənət nümunələri ərsəyə gətirməsini əks etdirən görüntülər "Youtub"da ən çox baxılan videolardır. İndoneziyada yaşayan 2 dost isə daha da gözlənilməz iş ortaya qoyub. Dostlar meşəyə gedərək oradan təbii materiallar toplayaraq süni futbol meydançası düzəldiblər. Sadə, ibtidai alətlərlə işləyən dostlar qısa zamanda torpaq zəminli üzəri yaşıl otlarla örtülü futbol meydançası ərsəyə gətirib. Bunun üçün bir qəpik də xərcləməyiblər. Futbol meydançasının tribunası, oturacaqları, reklam lövhələri, hətta video-hakim pultu da var. Meydançanın ərsəyə gəlməsi prosesini videoya çəkən dostlar bunu "Youtub" kanalında paylaşıb. Qısa zamanda videoya minlərlə baxış qeydə alınıb. Meydança tamamlandıqdan sonra gənclər futbol yarışı keçiriblər.

**Məlahət**

## 8 yaşlı uşağı 8 gün axtardılar

Nəhayət yoldakı kanalizasiyadan tapılıb



**Almaniyanın şimalında 8 yaşlı əlil uşaq itdikdən səkkiz gün sonra kanalizasiya quyusundan tapılıb.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, Almaniyanın şimalındakı Oldenburq şəhərində uşaq itkin düşəndən 8 gün sonra kanalizasiyadan sağ-salamat tapılıb.

İyunun 17-də evinin bağçasından yoxa çıxan Co adlı əlil uşağı tapmağa çalışan axtarış qrupları xilasetmə işlərini yekunlaşdırıb. İyunun 25-də yolda hərəkət edən bir piyada eşitdiyi səs-küydən sonra dərhal xilasedicilərə məlumat verib. Uşaq yaşadığı evdən 300 metr aralıda lyuk qapağının altında paltarsız və soyuq halda tapılıb. Susuzluq səbəbindən səhhətində problemlər yaranan uşaq dərhal xəstəxanaya aparılıb. Onun paltarları kanalizasiyanın başqa yerindən tapılıb. Oldenburq polisi açıqlamasında bildirib ki, istintaq orqanları əlil oğlanın evinin yaxınlığındakı drenaj borusuna dırmaşaraq daha sonra dar tunellərdə yoxa çıxdığı qənaətinə gəlib.

**Turan**



# Maraqlı araşdırma...

## Səyahəti sevməyimizin elmi izahı var

**Səyahət etməyi niyə sevirik? Rutin həyatınızdan uzaqlaşmaq və yeni yerləri kəşf etmək səyahət üçün kifayət qədər səbəb kimi görünə bilər. Ancaq bəzi tədqiqatlar göstərir ki, səyahət bioloji səbəblərdən bizə xoşbəxtlik verir.**

Təsəvvür edin ki, siz yavaş-yavaş ofis masanızdan uzaqlaşırsınız və yeni bir yerə səyahət etməyə hazırlaşırsınız. Bilet almaq, fərqli mədəniyyətləri yaşamaq və fərqli ləzzətləri dadmaq... Bunların hər biri bizi həyəcanlandırmaq və xoşbəxt etmək üçün kifayət qədər səbəb kimi görünür.

Səyahət etməyin xoşbəxtlik gətirdiyi danılmaz faktdır. Bəs, bu xoşbəxtliyin arxasında duran səbəb sadəcə yeni şeylər kəşf etməkdir?

Tədqiqatlar beyində ifraz olunan yüksək dopamin hormonunun səviyyəsi ilə insanın təhlükəli və impulsiv fəaliyyəti arasında güclü əlaqə olduğunu göstərir. Bu, sərbəst buraxılan dopamin DRD4 adlı bir gen növü ilə əlaqələndirilir. Müxtəlif asılılıqlarla əlaqəli olan bu genin insanların səyahət etmək istəyini tətiklədiyi bildirilir.

Bədən və beyin üçün çox vacib olan dopamin hormonu əhval-ruhiyyəyə birbaşa təsir edən kimyəvi maddədir. Həddindən artıq miqdarda ifraz olunduqda xoşbəxtlik və həzz duyğularını artırır, dopamin səviyyəsinin aşağı olması isə insanlarda motivasiyanı azaldır.

İndiana Universitetinin bioloqu Justin Garcia, yüksək dopamin səviyyələrinin və DRD4 geninin ibtidai insanların evlərini tərk edərək yeni ərazilər kəşf etmələrinin səbəbi olduğunu irəli sürür.

Köçəri həyatı yaşayan ilk insanlar yemək və sığınacaq ehtiyaclarını qarşılamaq üçün yola çıxdıqları kimi, səyahət etmək də bugünkü insanlar üçün oxşar funksiyaya malikdir.

Qədim dövrlərdə səyahət yaşamaq üçün bir ehtiyac kimi önə çıxarılırdı. Bu ehtiyac günümüzdə insanların ehtiyacları ilə üst-üstə düşməsə də, səyahət etməyi sevməyimizin altında yatan bioloji səbəblərin üzə çıxarılmasında mühüm rol oynayır.

**Turan**



## Avropalı fermerlər inəklərilə birgə etiraza çıxdılar



**Niderlandlı fermerlər hökumətin azot tullantılarına məhdudiyyət tətbiq etmək planlarına cavab olaraq parlament binası qarşısında qeyri-adi etiraz aksiyası keçiriblər.**

**Oxu.az xəbər verir ki, etirazçılar qanunun qüvvəyə minəcəyi təqdirdə heyvanları öldürəcəkləri ilə hədələyərək özləri ilə inəklərini də gətiriblər.**

***Qeyd edək ki, atmosferə azot tullantılarının əsas mənbələri mal-qara və gübrələrdən istifadədir. Niderland 2030-cu ilə qədər emissiyal həcmini iki dəfə azaltmağı planlaşdırır ki, bu da bəzi fermerləri işsiz qoyacaq.***

## Evlilikdən qorxmayın!

**Papa subay kişilərə müraciət edib**



**Katolik dünyasının ruhani lideri Papa Fransisk mühüm açıqlamalar verib.**

**Anti-LGBT çıxışları ilə tanınan, zaman-zaman sərt tənqidlərə məruz qalan Papa evlilik yaşında olub evli olmayan kişilərə müraciət edib. "Şərq" xarici mediaya istinadən xəbər verir ki, onlara evlilikdən qorxmamağı məsləhət görüb. O, gənc oğlanların analarına da çağırış edib: "Oğullarınızın köynəyini ütüləməyi dayandırın. Onları evlənməyə təşviq edin. Həddindən artıq sahiblənməyin və yuvanı tərk etmələrinə icazə verin. Buna gecikməyin".**

**Çimnaz Şahlar**

## Arda Turanın ikinci dəfə bəraətinə qərar verilib



**Türkiyəli məşhur futbolçu Arda Turanın uzun müddətdir davam edən məhkəməsi sona çatıb.**

**Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, müğənni Berkayın həyat yoldaşı Özləm Şahinə sataşdığı iddiasıyla məhkəlik olan Arda Turanın ikinci dəfə bəraətinə qərar verilib.**

***Qeyd edək ki, ilk məhkəmədə də bəraət alan Turan barədə apelyasiya məhkəməsində də eyni qərar verilib.***





# Əfqan qatilə hökm oxundu

“Qızım "pilot olacağam, göylərdə uçacağam" deyirdi...”

**Türkiyənin Kocaeli Gebze bölgəsində cinsi istismara məruz qalıb başından aldığı zərbədən həyatını itirən 16 yaşlı Ayşəgül Aydın cinayətində şübhəli bilinən şəxs barəsində nəhayət 132 gün sonra hökm çıxarılıb.**

"Şərq" "Milliyet.com"a istinadən bildirir ki, Ayşəgül cinayətində şübhəli bilinən şəxs Əfqanıstan doğumlu, Türkiyədə məskunlaşmış 20 yaşlı Muhammed Atikullah hakim qarşısına çıxarılıb. Məhkəmə Ayşəgülün ölümündə M.Atikullahı təqsirli bilərək ona ağırlaşdırılmış ömürlük həbs cəzası istəyib. Qeyd edilir ki, hadisə ötən il 12 iyulda Gebze əyaləti Pelitli məhəlləsində baş verib. Məktəbdən evə dönən Ayşəgül əfqan gənc tərəfindən izlənib, qız yolda addımlayarkən əfqan gənc arxadan ona hücum edərək ağaclıq əraziyə sürüməyə başlayıb. Qızın müqavimət göstərdiyini görən əfqan, onun boğazını sıxıb, başından vuraraq bayıldıb. Bayğın halda olan qızın paltarlarını soyundurmağa çalışıb. Lakin ətrafdan səslər gəldiyi üçün fikrindən vaz keçib. Qızı yol kənarına sürüyüb və sanki hadisədən xəbərsiz biri kimi qışqıraraq yardım istəməyə başlayıb. Hadisə yerinə gələn təcili yardım Ayşəgülü xəstəxanaya çatdırıb. Əfqan gəncin qaçdığını görən polis əməkdaşları isə onu yaxalayaraq polis şöbəsinə gətiriblər. Ayşəgül reanimasiya şöbəsində müalicə altına alınsa da, həkimlər onun həyatını xilas edə bilməyib. M.Atikullah istintaqa verdiyi ifadədə həmin gün içkili olduğunu, Ayşəgülü gördükdə



onu təqib etməyə başladığını, onu təsirsiz hala gətirmək üçün boğazını sıxdığını, qızın yıxılıb başından zədə aldığını deyib. Əfqan gənc deyib ki, qız bayıldıqda onu ayıltmağa çalışıb, ayılmadığını görüncə yol kənarına gətirərək ətradakılardan yardım istəyib. Dediyinə görə, hətta təcili yardım həkimlərinə yardım da edib. M.Atikullah "əməlimdən peşmanam. Qıza qarşı cinsi hərəkət etmədim. Yalnız soyundurub yenidən geyindirdim. Oradan qaçmadım, yardım istədim, qızın maşına qoyulmasına yardım etdim", söyləyib. Lakin istintaq M.Atikullahın Ayşəgülə cinsi istismar hərəkəti etdiyini təsdiqləyib. Ayşəgülün ölümünə isə başından aldığı zərbə səbəb olub. 20 yaşlı əfqan haqqında məhkəmə ağırlaşdırılmış ölüm cəzası hökmü çıxarıb. Ayşəgülün dəfnində isə atası ağlayaraq "qızım pilot olmaq istəyirdi. "Göylərdə uçacağam", deyirdi. Qızım göylərə "uçdu", söyləyib.

**Məlahət Rzayeva**

## Kök adamlar istiyə daha dözümlüdür

Onların dərialtı piy təbəqəsi artıq hərarəti içəri buraxmır



**Çox insanlar elə düşünür ki, piyli, artıq çəkili adamların isti havaya dözümü olmur, ürəkləri dözmür.**

Bakupost.az xəbər verir ki, endokrinoloqlar əksinə, kök, artıq çəkili adamların istiyə daha dözümlü olduğunu deyir.

Endokrinoloq Mariya Koloşina bildirib ki, onların dərialtı piy təbəqəsi artıq hərarəti içəri buraxmır, bədəni yüksək havadan qoruyur:

"Kök adamların xarici bədən səthi arıq adamdan geniş sahəli olduğu üçün, tər ifrazı daha güclü və çox olur, nəticədə istilik dəri ilə buxarlanır, orqanizm daxildən daha intensiv soyuyur.

Lakin artıq piyli insanlarda termotənzimləməyə mane olan müxtəlif patologiyalar yaranır: damarların tutulması, ürək-damar problemləri, daxili piylənmə və s."

## Qadınlar niyə xoruldayır?

Alimlər səbəbi tapdı



**Hər 20 qadından biri obstruktiv apnoedən əziyyət çəkir. Adətən qadınlar menopauza dövründə xoruldamağa başlayır.**

Bakupost.az xəbər verir ki, qadın xorultusu cinsiyyət hormonlarının vəziyyətindən asılıdır.

Norveçin Bergen universitetinin alimləri yeni elmi tədqiqatlarında qadın xorultusunun səbəbini araşdırıb.

limlər 40-67 yaş arası 774 qadının tibbi məlumatlarını incələyib. 71% iştirakçı bildirib ki, gecələr xoruldayırlar, onların hamısında obstruktiv gecə apnoesi diaqnoz olunub.

Apnoe zamanı tənəffüs ritmi pozulur, gecə yuxuda tənəffüs bir neçə saniyəlik dayanır, sonra qəfil bərpa olaraq, xorultu ilə davam edir. Belə epizodlar gecəboyu 20-40 dəfə təkrarlana bilər.

Analizlər göstərib ki, xorultu ilə qadın cinsiyyət hormonları arasında sıx bağlılıq var.

Qanında ekstogen hormonu çox olanlarda gecə xorultusu az olur, progesteron hormonu isə xorultu riskini 9% azaldır.

Alimlər hesab edir ki, qadınlarda xorultunu müalicə etmək üçün hormonal terapiya aparmaq olar.